İslam şəriətində təvəssül məfhumu

İslam şəriətində təvəssül məfhumu

Müəllif: Əllamə Cəfər Sübhani

Tərcümə etdi: Hacı Heydər Məmmədov

Bakı 2015

İslam şəriətində təvəssül məfhumu.

Əziz oxucu, sizə təqdim olunan bu məqalə Əllamə[1] Cəfər Sübhaninin yazdığı kitabın ərəb variantından tərcümə olunmuşdur. Əsas məqsəd hal-hazırda, dünyada müsəlmanlar arasında çox aktual olan bir məsələyə aydınlıq gətirməkdir. Əlbətdə, bu barədə, çoxlu kitablar və məqalələr yazılmış və təvəssül məfhumunun monoteizmə heç bir zərər vurmadığı sübut edilmişdir. Bundan əlavə, qeyd etməliyik ki, Allah dərgahında kiminsə vasitə qərar verilməsi insan ruhunun dərinliklərindən gələn bir zərurətdir. Çünki insanlar mənəvi paklıq baxımından bərabər deyildir. Allahdan başqa kimsəni məbud qərar verməmək vicdanın etiraf etdiyi bir həqiqətdir. Elə isə, onda təvəssülü qəbul edən hansı müsəlman vasitə qərar verdiyi şəxsin ilahiləşdirilməsinə razı ola bilər?!

Bu kitab təvəssülün düzgün olmasını sübut edə biləcək dəlillərə malikdir. Görünəcək ki, təvvəssül nəinki monoteizmə zərər vurmur, əksinə İslam dininin imza atdığı inanclardan biridir. Sübut üçün təqdim edilən dəlillər Qurani Kərim, Əhli Beytdən gələn hədis və rəvayətlər və nəhayət sağlam əqli dəlillərdən ibarətdir. Lakin qeyd etmək lazımdır ki, tərcümə zamanı bəzi yerlərdə ixtisar, digər yerlərdə isə əlavələr edilmişdir. Çox maraqlıdır ki, kitabın sonunda böyük əhli sünnət alimlərinin qələmə aldığı on kitabın adı qeyd edilmişdir. Bu da kitabın elmi qiymətini artırır və onun istinad etdiyi mənbələrin xəyal olmamasını bir daha təsdiq edir.

Ümidvaram ki, bu məqalə sizin bəzi suallarınıza aydınlıq gətirəcək və həqiqət axtarışında yardımçı olacaq. Kitabda tərcüməçi tərəfindən buraxılmış hər hansı bir nöqsana rast gəlsəniz kitabı çap edən ünvana bildirməyinizi xahiş edirəm.

Müəllif: Əllamə Cəfər Sübhani

Mütərcim tərəfindən bəzi əlavələr edilmişdir.

[1] Əllamə termini bir neçə elmdə xariqüladə istedada malik olan insanların haqqında işlədilir.

İbadətdə monoteizm peyğəmbərlik dəvətinin əsasıdır.

İbadətdə olan monoteizm bütün səmavi missiyaların müqəddəs kitablarında peyğəmbərlərin təbliğinin əsasını təşkil edir. İbadətdə monoteizm, insanın yalnız Tanrıya ibadət etməsi və Tanrıdan başqasına, hər kim olursa olsun, ibadət etməməsi deməkdir.

İbadətdə monotezim anlayışı, şirk və bütpərəstlik zəncirlərinin qırılması, səmavi təlimlərin əsas fəqərə sütunudur. Beləliklə peyğəmbərlər və səmavi elçilər yalnız bu hədəf üçün yəni monoteizm sütunlarının möhkəmləndirilməsi, şirkin bütün formaları xüsusilə də ibadətdə olan şirklə mübarizə üçün göndərilmişdir.

Bu həqiqət Qurani Kərimdə olduqca aydın şəkildə öz əksini tapmışdır. Allah təala belə buyurmuşdur: “Artıq bütün ümmətlərə elçi göndərdik ki, Allaha ibadət edib tağutlardan çəkinəsiz” (Ən Nəhl surəsi, 36-cı ayə)

Haqq Təala belə buyurmuş: “Səndən əvvəlki bütün elçilərə Məndən (Allahdan) başqa bir məbud olmadığını vəhy etdik ki, Mənə ibadət edəsiniz” (Əl Ənbiya surəsi, 25-ci ayə).Qurani Kərim başqa bir ayədə ibadətdə olan monoteizmi bütün səmavi şəriətləri birləşdirən əsas prinsiplərdən biri kimi vəsf edərək belə buyurur: “De: “ey Kitab əhli, bizimlə sizin aranızda olan ortaq kəliməyə gəlin.Ondan başqasına əsla ibadət etməyək və Ona heç bir şeyi şərik qərar verməyək.” (Ali İmran surəsi, 64-cü ayə)

Qurani Kərim kafirin həyatdakı mövqeyini “səmadan düşən bir şeyə” bənzədərək aqibətini qartal və şahinlərə yem və yaxud da ucu-bucağı görünməyən bir quyuya atılmış kimi təsvir edərək buyurur: “Allaha şərik qərar verən elə bil ki, səmadan düşən (bir şeyə) bənzər və quşlar onu (yem) kimi qaparlar və yaxud da küləklər onu ucu-bucağı bilinməyən bir yerə atar.” (Əl Həcc surəsi, 31-ci ayə). Bu, ona görədir ki, müşrik bu həyatda həqiqi və doğrucul olmayan şeylərə etimad etmiş və yaxud da özü kimi ehtiyaclı məxluqlara söykənmi, onları öz həyatında dayaq nöqtəsi əxz etmiş, onlarn fayda və ya zərər verəcəyini güman etmişdir.

Halbuki “bu bütlər” nəinki özlərini hətta onalara ibadət edənləri belə qorumaq iqtidarında deyillər. Beləliklə də bu tip insanlar səmadan düşən və heç bir qoruyucusu olmayan, yaxud da onu quşların və küləklərin şərrindən qoruya bilən bir kimsəsi olmayana bənzəyirlər.

İslam peyğəmbəri bu kimi ayələrin məzmununa əsasən və həmçinin, yaşayış tərzindən bizə yetişən məlumatlara görə bütün var qüvvəsi ilə şirklə mübarizə etmiş və bu mübarizəni öz təbliği üçün bir yol qərar vermişdir. Belə ki, şirkin digər formalarına qarşı müharibə elan etsə də, əsas zərbə ibadətdə olan şirkə daha çox yönəlmişdir.

Buna görə də özünü müsəlman adlandıran şəxs İslam dini sıralarına heç bir qeyd, şərt qəbul etməyən bu prinsipi qəbul etməklə daxil ola bilər. İbadət həqiqi mənada hər bir eyb və nöqsandan pak olan Allah təalaya məxsusdur. Digərlərini Allaha şərik qərar vermək zülm və Onun qüdsiyyət məqamına təcavüz etmək deməkdir. Allah öz saleh bəndələrindən birinin dili ilə belə buyurur: “Ey mənim əziz oğlum, Allaha şərik qərar vermə, həqiqətən də şirk ən böyük zülmdür.” (Loğman surəsi, 13-cü ayə).

Və buna görə də İslam şəriətində hər bir əməl bu prinsipə uyğun gəlməli və bunu aşmamalıdır. Hətta, əgər prinsiplə ziddiyət təşkil edən bir məfhum hər hansı bir hədisdə gəlsə belə o rədd olunmalı və heç bir vəchlə qəbul olunmamalıdır.

Dində bidət

İslam dinində digər daha böyük əhəmiyyətə malik bir prinsip də var. Bu, bidətin haram olması və ilahi şəriətə aid olan məfhumlara hər hansı bir şəxsiyyət tərəfindən dəxalət edilməsindən ibarətdir. Bunun səbəbi qanunvericiliyin yalnız Allaha məxsus olduğunu bildirmək, başqa sözlə desək, hər hansı bir şəxsin qanunvericilik sahəsinə dəxalət etməməsi üçündür. Beləliklə də bu meydana daxil olub hər hansı bir qanunu Allaha istinad edən şəxs bidətçi adlanır. Qurani Kərimdə qanunvericiliyin Allaha məxsus olmasına işarə edən ayələr bu məsələdə digərlərinin heç bir haqqı olmadığını bəyan edir. Bu məzmunda olan bəzi ayələrə işarə edək. Qurani Kərim belə buyurur: “Hökm yalnız Allaha məxsusdur. Ondan başqasına ibadət etməməyi əmr etmişdir. Bu, həqiqi dindir. Lakin insanların çoxu bilmir.” (Yusuf surəsi, 40-cı ayə). Bu ayədə səslənən “hökm” qanunvericilik deməkdir. Çünki bu sözdən sonra gələn “Ondan başqasına ibadət etməməyi əmr etmişdir” ifadəsi buna açıq aşkar işarədir.

Allah təala buyurur: “Onlar necə sənin hakim olmağını istəyirlər, bir halda ki, Tövrat onların əlindədir və onda Allahın hökmləri vardır. (Sənin hakim olmağını tələb edəndən) sonra üz döndərirlər. Onlar mömin deyillər.” (Əl Maidə surəsi, 43-cü ayə). Bu ayədən

göründüyü kimi Allah təala yəhudiləri Tövratdan üz döndərib İslam peyğəmbərinin hakim olmasını tələbini məzəmmət edir. Bu, yalnız və yalnız hökm və qanunvericiliyin Allaha məxsus olduğunu təkid etməkdən başqa bir şey deyildir.

Allah təala yəhudiləri və onların dini rəhbərlərini Allah hökmündən üz çevirib dünyaya tamah saldıqları üçün başqalarının hökmünü qəbul etdiklərinə görə məzəmmət edərək belə danlayır: "Hər kəs Allahın nazil etdiyini əsas tutmayıb hökm edərsə kafirdir." (Əl Maidə surəsi, 44-cü ayə). Allah təala buyurmuşdur: " Hər kəs Allahın nazil etdiyini əsas tutmayıb hökm edərsə zalımdır." (Əl Maidə surəsi, 45-ci ayə). Həmçinin buyurmuşdur: "Hər kəs Allahın nazil etdiyini əsas tutmayıb hökm edərsə fasiqdir." (Əl Maidə surəsi, 47-ci ayə).

Bu və ya bu kimi ayələr, hökm və qanunvericiliyin yalnız Allaha məxsus olmasına və yaxud da Onun nazil etdiyini əldə əsas tutaraq hökm verməyə dair aşkar dəlildir. Hər kəs Allahın nazil etdiyi qanunvericilik çərçivəsindən kənara çıxaraq özündən hökm verərsə kafir, zalım və fasiqdir.

İmam Muhəmməd Baqir (ə) bu barədə belə buyurmuşdur: "Hökm iki cürdür: Allahın hökmü və cahiliyyət əhlinin hökmü. Hər kim Allahın hökmündə xətaya yol verərsə cahiliyyət əhlinin hökmünü vermişdir."[2]

Allahın işlərinə müdaxilə etmək və özündən qanunverməni məzəmmət edən ayələr çoxdur və bunların hamısını bir yerə cəm edən məfhum "dində bidət törətmək" dən ibarətdir. Bu, ya Quran və Sünnətə (peyğəmbər və onun əhli beytindən gələn hədislər) zidd olan fətvaların verilməsi, yaxud da, dində olmayan hər hansı bir şeyi dinə daxil edilməsi yolu ilə baş verir. Ümumiyyətlə, bidət Allah və onun rəsulunun adından yalan danışmaq və bu iftiranı ümmət içində yaymaq deməkdir. Allah təala buyurur: "Allaha yalan söyləyib iftira edən və yaxud da onun ayələrini yalanlayandan daha zalım kimdir?! Həqiqətən, zalımlar nicat tapmazlar." (Əl Ənam surəsi, 21-ci ayə).

Göründüyü kimi müşriklər peyğəmbərə Qurandan başqa bir kitab gətirməyi təklif edərkən onlara belə cavab verməyi təlqin edir: " De ki, mənim onu (Quranı) öz nəfsimin tərəfindən dəyişməyə haqqım yoxdur. Mən yalnız nazil olan vəhyə tabeyəm. Mən rəbbimə günah etməkdən qorxuram çünki Qiyamət gününün əzabı böyükdür." (Yunis surəsi, 15-ci ayə).

Əziz İslam peyğəmbəri belə buyurmuşdur: "Ən gözəl kəlam Allahın kitabı və ən gözəl hidayət Muhəmmədin hidayətidir. Və hadisələrin ən pisi isə sonradan (heç bir qanuni əsası olmayaraq) baş verənlərdir..."[3]

[2] Əl Hurr əl Amuli, "Vəsail əl şiə ilə təhsil məsail əl şəriə", "Qazinin sifətləri babı"

İbn Həcər bu ifadəni yəni “hadisələrin ən pisi sonradan baş verənlərdir” izah edərək belə deyir: “Əl mühdəsət”, “mühdəsə” nin cəmidir, sonradan çıxarılmış və şəriətdə kökü olmayan bir şeyə deyilir və bidət adlanır. Deməli, şəriətdə kökü və dəlili olan şey bidət deyildir.”[4]

Müxtəsər olaraq işarə etdiyimiz bu iki prinsip məzhəblərin müxtəlifliyinə baxmayaraq İslam ümmətinin hamılıqla müttəfiq olduğu inanclardandır. Bir filosof və ya kəlam alimi və yaxud da fəqih tapılmaz ki, bunun ziddinə bir kəlmə də danışsın. Nə üçün də belə olmasın?! Axı, bütün əsrlərdə müsəlmanların şüarı “Allahdan başqa məbud yoxdur” və “Allahdan başqa hakim yoxdur” ifadələri olmuşdur.

Müsəlman olan hər bir insan hər gün bu ayələri tilavət edir: “Yalnız Sənə ibadət edirik və yalnız səndən yardım diləyirik.” (Əl Həmd surəsi, 5-ci ayə) Həmçinin Allah təala başqa bir ayədə belə buyurur: “Ey iman gətirən kəslər Allah və Onun rəsulunu (hər hansı bir işdə) qabaqlamayın. Allahdan qorxun. Həqiqətən Allah eşidən və biləndir.” (Əl Hucurat surəsi, 1-ci ayə).

Allah təala buyurur: “Əgər Allah və Onun rəsulu (hər hansı bir məsələ barəsində) hökm edərsə, artıq heç bir mömin kişi və mömin qadının seçim ixtiyarı yoxdur. Hər kim Allah və Onun rəsuluna üsyan edərsə, artıq açıq-aşkar zəlalətə düşmüşdür.” (Əl Əhzab surəsi, 36-cı ayə)

Başqa bir ayədə isə belə oxuyuruq: “Bu, mənim düz yolumdur. Onu izləyin və (müxtəlif) yollara düşüb onu izləməyin ki, sizi Allahın yolundan uzaqlaşdırar. Bu, Allahın sizə etdiyi tövsiyyədir. Şayəd Allahdan qorxasınız.” (Əl Ənam surəsi, 153-cü ayə). Beləliklə, dində bidət törədən insan Allahın yolundan üz çevirib başqa yola üz tutan, müsəlmanları Allahın yolundan uzaqlaşdıran, öz mənafeyinə uyğun hökm verəndir. Başqa sözlə desək, o, Allaha yalan bağlayıb iftira edən, günahların ən pisinə bulaşan bir kəsdir və aqibəti cəhənnəmdir.

Bu iki prinsip aydın olandan sonra əsas hədəf təvəssül məfhumunun açıqlanması, onun qisimlərinin izahı, Quran və Əhli beyt hədisləri sayəsində onun hökmünün aşkar olunmasıdır. Quran və Sünnətin mötəbər saydığı hər bir təvəssülün qismini icazə verilmiş təvəssül siyahısına daxil etmək, mötəbər saymadığı və icazə vermədiyi qismi isə həmin siyahıdan çıxardıb kənara atmaq lazımdır. Bu kitabı oxuduqca məlum olacaq ki, ibadətdəki monoteizmə toxunan, qanunvericilik haqqına müdaxilə edən, Allahın nazil etmədiyi, heç bir dəlil və sübuta malik olmayan bidət sayılan təvəssül qismi isə qadağan olunmuşdur.

---

[3] Əl Buxari, “Səhih”, dəməşq çapı, İbn Kəsir mətbəəsi, 6-cı cild, səh. 2655

[4] Əl Əsqəlani, “Fəth əl bari şərh Əl Buxari”, 13-cü cild

Təvəsül məfhumunu anlamaq üçün Quranın möhkəm[5] ayələri, sünnətin səhih[6] və həsən[7] hədisləri, səhabələr[8] və tabeinlər[9] arasında yayılmış adət ənənəyə əsaslanacağ. Çünki bu sənədlər təvəssülün icazə verildiyini sübut edərək ola bilsin bizə yetişməyən bəzi dəlillərə işarə etsin. Buna görə də təvəssülün barəsində əvvəlcədən heç bir müsbət və mənfi mövqe tutmayaraq Quran və Sünnətin məram və məqsədinə tabe olmuşuq.

Təvəssül (Lüğətdə və elmi dildə)[10]

Təvəssül sözü ərəb sözü olaraq "vəsilə" sözündən götürülmüşdür. Əbu Əbdurrəhman əl Xəlil ibn Əhməd əl Fərahidi "Kitəb əl eyn" də "vəsilə" maddəsinin izahında belə demişdir: "Rəbbimə vəsilə qərar verdim, yəni elə bir iş dördüm ki, onun vasitəsilə rəbbimə yaxınlaşdım. Hər hansı bir şəxsə bir yazı ya da bir qohumluq əlaqəsi ilə vasitəçilik etdim, yəni həmin şeylərlə ona yaxınlışdım."

Ismayıl ibn Həmmad əl Cövhəri "Əl sihah tac əl lüğət və sihah əl ərəbiyyət" də belə demişdir: "Vəsilə başqasına yaxın olmaqdan ötrü istifadə olunan bir şeydir."

Lüğət kitablarında "vəsilə" sözünü təhqiq etməyə o qədər də ehtiyac yoxdur, çünki bu açıq-aşkar olan məfhumlardandır. "Vəsilə" sözünün həqiqəti bir şeyi vasitə qərar verməklə hədəfə yetişməkdən ibarətdir ki, bu da hədəf və məqsədlər dəyişdikcə dəyişikliyə məruz qalır.

Allahın razılığını qazanmaq istəyən hər bir insan onun razılığını cəlb edən saleh əməlləri onun dərgahında vəsilə qərar verir. Duasının qəbul olmasını istəyən hər bir insan şəriətdə vəsilə sayılan şeyləri onun hüzuruna təqdim edir. Allah evini, Kəbəni ziyarət etmək istəyən insan isə Allah evinə çatdıran vasitələrlə dua edir. Beləliklə, təvəssül sözünün mənası açıq-aşkar olduğu üçün dilçi alimlərin bu sahədə dediyi sözləri nəql etməməyi qərara alırıq, baxmarayaq ki, onların sözləri bir-birinə daha oxşardır.

Bu məqamda isə təvəssül (bəndənin öz rəbbinə duasının qəbul olması üçün) hər hansı bir şeyin vəsilə olaraq təqdim edilməsidir. Misal olaraq deyə bilərik ki, əgər bəndə Allahın gözəl adlarını, uca sifətlərini, əzəmətini və paklığını xatırlayıb dilinə gətirərsə və sonda isə öz diləyini diləyərsə artıq Allahın gözəl sifətlərini öz hədəfinə yetişməkdən ötrü vəsilə qərar vermiş olur. Həmçinin digər təvəssüllər də bunun kimidir və hətta demək olar ki, təvəssül

[5] Yalnız bir mənası ehtimal olunan ayə
[6] Sənəd baxımından ravilər vasitəsilə məsum imama bağlı olan və bütün raviləri on iki imam şiəsi olan hədis
[7] Sənəd baxımından hədis alimləri tərəfindən təriflənmiş on iki imam şiəsi olan ravilər vasitəsilə rəvayət olan hədis
[8] Peyğəmdəri görüb və onunla müsahib olan insan
[9] Peyğəmbərə iman gətirib hər hansı bir səhabəni görən və müsəlman olaraq ölən insan
[10] Bu sözün mənasına burada göstərilmiş və digər lüğət kitablarına müraciət edə bilərsiniz

insanın fitri və vicdani bir fəryadıdır. İmam Sadiq (ə) belə buyurmuşdur: "Allah təala hadisələri yalnız və yalnız öz səbəbləri ilə baş verməsini istəmiş və buna görə də hər bir şeyə bir səbəb qərar vermişdir."[11]

Əgər vəsilə hər hansı bir şey üçün təbii səbəb olarsa onda onların arasında yalnız adi əlaqənin olması şərtdir. Doymaq istəyən hər bir insan su içərsə bu onu rahat etməz, çünki su ilə aclıq arasında heç bir əlaqə yoxdur. Buna görə də aqil insanlar bu üslubu öz dünya həyatlarında vicdani stimul və yaxud da təcrübi amillə rəhbər tuturlar. Məlumdur ki, Zülqərneyn dağların arxasından gəlib fitnə-fəsad törədib, insanları qətlə yetirən Yəcuc və Məcuc tayfalarının şərrindən xilas olmaq üçün dəvət olunduqda bu dəvəti qəbul edib onların şərrindən qurtarmaq üçün möhkəm təbii vasitələrə əl ataraq belə deyir: "Mənə ərimiş mis gətirin onun üzərinə töküm. "Beləliklə, onlar həmin dağı nə aşa bildilər, nə də onda deşik aça bildilər." (Əl Kəhf surəsi, 96 və 97-ci ayələr).

Göründüyü kimi belə mühüm bir məqamda bu ilahi insan (Zülqərneyn) təbii səbəbdən istifadə etdi. Çünki hədəflə vəsilə arasında rabitəyə ehtiyac var idi və həmin hədəf isə bu iki qan içən tayfanın şərrindən qurtarmaq üçün iki dağ arasında səddin yaradılması idi. Bunun üçün dəmir parçalarını iki dağın arasına yığandan sonra dəmirçilərə əmr edir ki, ərimiş misi gətirsinlər və həmin səddin üzərinə töksünlər, beləliklə, iki dağ arasındakı boşluqda möhkəm bir sədd tikilir. Bu səddin daşı dəmir parçaları, torpağı isə ərimiş mis olur.

Bu və bunun kimi məqamlarda insan həyatı hədəflə vəsilə arasında sadəcə olaraq təbii bir əlaqənin yaradılması üzərində qurulmuşdur. Amma bu maddi aləmdən fərqli olan başqa, yəni mücərrəd bir aləmdə isə səbəblər bizə məlum olmadığı və heç bir elmi təcrübəyə tabe olmadığı üçün, daha dəqiq desək, bu aləm qeybi (bizə məlum olmayan) həqiqətlərdən sayıldığı üçün insan bunlara yol tapa bilmir. Bunun üçün də səmavi elçilər və peyğəmbərlərin bəyanına, şəriət və vəhyin köməyinə ehtiyac yaranır. Yalnız onlar bizə hər hansı hədəflə vəsilə arasında olan əlaqəni açıqlaya bilərlər.

Bu prinsipi əldə əsas tutaraq Allahın razılığını qazanmaq, günahlarımızın bağışlanması, dualarımızın qəbul olunması, məqsədlərə çatmaqdan ötrü yalnız şəriətin təyin etdiyi, açıq-aşkar işarə etdiyi vəsiləyə tapına bilərik. Bu çərçivədən kənara çıxmaq insanı qanunvericilik uçurumuna və bidət qətlgahına sürükləyir.

Bütün əsrlərdə yaşayan müsəlmanlar istər səhabələr olsun, istərsə də onlardan sonra gələn tabeinlər olsun bu çərçivədən kənara çıxmamış. Şəriətin təvəssül sahəsində dəvət etdiyini əxz etmiş, icazə verilməyəni və mötəbər saymadığını isə tərk etmişlər. Bu kitabda biz sizlərə

[11] Şeyx Kuleyni, "Əl usul min əl kafi" , 1-ci cild

şəriətin icazə verdiyi, düzgün bildiyi və peyğəmbərin, onun seçilmiş xəlifələrinin təşviq etdiyi təvəssülləri təqdim edirik. Buna görə də əsas mətləblə kifayətlənərək artıq söz-söhbətdən çəkinmişik...

Allahın adları və sifətləri ilə təvəssül

Allah təala bəndələrini özünün gözəl adları ilə dua edilməsinə əmr edərək buyurmuşdur: "Gözəl adlar Allaha məxsusdur. Onu bu adlarla nida edin. Və Allahın adlarında şirkə yol verənləri tərk edin. Onlar gördüyü əməllərə görə cəzalanacaqlar." (Əl Əraf surəsi, 180-cı ayə).

Bu ayə Allahın bütün sifətlərini mənasının gözəlliyinə görə, zati və feli sifətlər arasında heç bir fərq qoymadan gözəl sifətlər adlandırır. Hər bir müsəlmanın vəzifəsidir ki, Allahı bu adlarla çağıraraq belə desin: "Ey Rəhman və Rəhim olan Allah, ey göyləri və Yeri yaradan, ey günahları bağışlayan, ey balaca balalara ruzi verən Allah"...v.s. Bununla da Allahın gözəl sifətlərindən üz döndərib öz bütlərinə Allahın adlarını qoyan müşrikləri tərk etsin.

Əgər bəndə bütün xeyr və bərəkəti özündə toplayan bu adları zikr edərək sonra isə öz ehtiyaclarını Allahdan istəsə, O da cavab verər və onun dualarını qəbul edər. Bu barədə bir çox səhih hədislər gəlmişdir. Onlardan bəzilərini burada qeyd edirik:

Əl Tirmizi öz "Səhih"ində Abdullah ibn Bureydədən, o da öz atasından belə nəql: "Bir gün peyğəmbər bir kişinin belə dediyini eşidir: "Ey mənim Allahım, Sənin birliyinə şəhadət verib Əhəd və Saməd olmağını, doğmayıb və doğulmayıb deyərək, Sənə bir kəsin oxşayıb, tayı-bərabəri olmadığını təsdiq edərək Səndən xahiş edirəm." Peyğəmbər belə buyurdu: "Artıq Allahı ən böyük adı ilə dua etdin. Hər kəs bu adla dua etsə ona cavab verilər və bir şey diləsə ona əta olunar."[12]

Bu hədis vəsiləni və Allahın gözəl adları ilə təvəssülü bəyan etməsinə baxmayaraq həmin adamın dilədiyi hacət barəsində bir şey danışmır.

Əbu Hüreyrədən belə nəql olunur: "Bir gün Fatimə peyğəmbərin yanına gəlib ona ev işlərində kömək etməsi üçün xadimə istəyir. Peyğəmbər ona buyurur ki, belə desin: "Ey mənim Allahım, yeddi səmanın, əzəmətli ərşin pərvərdigarı, ey bizim və hər bir şeyin pərvərdigarı və Tövrat, İncil və Quranı nazil edən, toxumu və (içindəkini) nüvəni parçalayan. Hər bir şeyin şərrindən Sənə pənah aparıram, çünki Sən hər şeyə qadirsən. Sən əvvəlsən və Səndən əvvəl bir şey yoxdur, Sən Axırsan və Səndən sonra bir şey yoxdur . Sən Zahirsən və

[12] Əl Tirmizi, "Əl cami əl səhih", 5-ci cild.

Sənə üstün bir şey yoxdur, Sən Gizlinsən və Sənsiz bir şey yoxdur. Mənim öhdəmdə olan borcumu əda et və məni bu yoxsulluqdan xilas et.”[13]

Əl Tirmizi və Əhməd, Ənəs ibn Malikdən nəql edərək deyirlər ki, Ənəs ibn Malik peyğəmbərlə oturmuşdu. Bu zaman isə bir kişi namaz qılmaqla məşğul idi. Sonra belə dua etdi: “Ey mənim Allahım, bütün tərifl ər yalnız Sənə məxsusdur, Sən (öz bəndələrinə) minnət qoyan, göyləri və yeri yaradansan. Ey cəlalət və ehtiram sahibi, ey daim diri və qəyyum Allah, yalnız səndən xahiş edirəm. Bu vaxt peyğəmbər buyurdu: “Heç bilirsiniz Allahı nəyə and verdi?! Allahı elə böyük adına and verdi ki, əgər bir kəs Onu bu adla dua etsə cavab verilər və hər nə diləsə ona əta olunar.”[14]

Əhli beyt imamlarından gələn hədislərdə bu cür təvəssüllərə rast gəlmək olar:

İmam Rza (ə) öz babası İmam Baqirdən belə nəql edərək buyurur ki, o, Ramazan ayında Allah təalanı belə dua edərdi: “Ey mənim Allahım, Səni malik olduğun məqam və səltənətə and verərək xahiş edirəm, Səni yalnız Sənə məxsus olan bütün məqam və bütün səltənət və hakimiyyətinə and verərək xahiş edirəm. Ey mənim Allahım, Səni xahiş edən zaman verdiyin cavaba and verirəm mənə cavab ver, ey Allah.”[15]

Şeyx Tusi “Misbah əl mütəhəccid” kitabında İmam Baqir və İmam Sadiq (ə)-dan “Simat” adlı duanı nəql etmişdir. Həmin duanın girişində belə gəlmişdir: “Ey Allahım, Səni son dərəcə əzəmətli, əziz, böyük və hörmətli adına and verərək xahiş edirəm. Bu ad elə bir addır ki, əgər səmanın bağlı qapılarına rəhmətlə açılması üçün oxunursa o qapılar açılar və əgər Yer qapılarının arasına açılması üçün oxunarsa açılar və əgər yüngüllük üçün çətinliyə oxunarsa yüngülləşər...”[16]

Həqiqətən Allah təalanın həmd və sənası və Quranın onu vəsf etdiyi sifətlərlə sifətlənməsi duanın qəbul olunması üçün gözəl zəmin yaradır və dua edən şəxsin Onun rəhməti, əfvi, sonsuz dərəcə kəramətinə olan haqqını bəyan edir. Təvəssülün bu qismi bütün İslam ümməti tərəfindən qəbul etdildiyi üçün bu qısa bəyanla kifayətlənirik.

Qurani Kərimlə təvəssül

İnsan övladı vəsf və ifadə vasitələrində hər nə qədər ixtiraçı olsa da Allah təalanın kəlamını vəsf etmək iqtidarında deyildir. Belə ki, bunu Allah təala Quranda özü etiraf edir.

[13] Həmin məsdər
[14] Həmin məsdər
[15] Seyid ibn Tavus əl Hilli, “Əl iqbal”
[16] Şeyx Tusi, “Misbah əl mütəhəccid”

Allah Quranı bu adlarla vəsf etmişdir: Nur, bəyan edən kitab, müttəqi insanların hidayət kitabı, hər bir şeyi bəyan etmək üçün haqla nazil olan v.s.

Allahın kitabı Onun yaratdıqlarındandır. Buna görə də Quranla təvəssül və Qurana and verib diləmək Allahın yaratdığını vasitə qərar verməkdən ibarətdir. Çünki Onun rəhməti və mərhəməti hər bir şeyi əhatə etmişdir. Bununla da Allahın kitabını vasitə qərar verən şəxs təvəssülün bu qisminin mötəbər olduğunu dəlil vasitəsi ilə sübuta yetirməlidir. Bu ona görədir ki, hər bir müsəlman gördüyü işin şəriət tərəfindən dəlil və sübutla isbatına yəqin etməli və bilməlidir ki, etiqad etdiyi hər hansı bir şey monoteizm prinsipi ilə heç bir ziddiyət təşkil etmir.

Əhli sünnət alimlərindən olan İmam Əhməd İmran ibn Harisdən nəql edərək belə deyir: "Bir gün hekayə söyləyən bir kişinin yanından sovuşurdum. İmran sözünə başlayaraq belə dedi: "Biz Allahdanıq və Ona doğru qayıdacağıq. Allahın rəsulundan eşitdim ki, belə deyərdi: "Quran oxuyun və Quranı vasitə qərar verərək Allah təaladan diləyin."[17]

Hədisə diqqətlə nəzər salan insana bir həqiqət açıqlanmaqdadır. O da Allah yanında məqam və hörmətə malik olan hər bir şeyi Onun dərgahına vasitə salmaqdan ibarətdir. Quranın vasitə qərar verilməsi bu kitabın Allah dərgahında izzət və hörmətə malik olması üçündür. Həmin bu sifətlər əziz İslam peyğəmbəri və onun pak və məsum Əhli beytində mövcuddur.

İbn Tavus əl Hilli "Əl iqbal" kitabında Əhli beytdən nəql etdiyi rəvayətdə belə deyir: "Qədr gecəsində Quranı açıb belə demək müstəhəbdir: "Ey mənim Allahım, Səni nazil olmuş Qurana və içindəkilərə and verərək diləyirəm. Bu kitabda Sənin böyük ismin, gözəl adların, insanı qorxuya salan və ümid verən ayələr var. Məni cəhənnəm odundan azad olunmuşlardan qərar ver."[18]

Saleh əməllərlə təvəssül

Əgər təvəssül hər hansı bir şeyi Allahın hüzuruna təqdim edərək duanın qəbul olunmasını diləməkdirsə, onda şübhəsiz ki, saleh əməllər Allaha yaxın olmaq üçün ən gözəl vasitələrdəndir. Bunun nəticəsi olaraq Allahın rəhməti nazil olur və dua qəbul olur. Hətta bəzi ayələrdə bu mətləbə açıq-aşkar olmasa da bəzi işarələr vardır. Buna baxmayaraq peyğəmbər və Əhli beytin sünnəti buna, tamamilə, dəlil ola bilər. İndi isə bəzi Quran

[17] Əhməd ibn Həmbəl, "Musnəd", həmçinin bu hədisi Əl Təbərani və Əl Beyhəqi öz hədis kitablarında nəql edir
[18] Seyid ibn Tavus əl Hilli, "Əl iqbal"

ayələrinə müraciət edək: “İbrahim və İsmayıl Kəbə evinin bünövrəsini qaldırdıqları zaman (İbrahim) belə dedi: “Bizim pərvərdigarımız, bizdən qəbul et. Həqiqətən, sən eşidən və bilənsən. Ey bizim pərvərdigarımız, bizi Sənə təslim olanlardan qərar ver, bizim nəslimizdən də Sənə təslim olan ümmət qərar ver. Bizə ibadətlərimizi göstər və bizləri bağışla. Həqiqətən, Sən bağışlayan və rəhimlisən.” (Əl Bəqərə surəsi, 127 və 128-ci ayələr)

Gördüyünüz kimi İbrahim və onun səbrli oğlu Allaha vəsilə olaraq kəbənin təmir olunmasını təqdim edərək bir neçə şey dilədilər: əməlin qəbul olunmasını, ikisinində Allaha təslim olanlardan qərar verilməsi, həmçinin onların nəslindən olan insanların sırf Allaha təslim olması, ibadətlərin tanıtdırılması və tövbənin qəbulu.

Düzdür, bu ayə açıq-aşkar bizim mətləbə dəlalət etməsə də, lakin İbrahim peyğəmbərin öz oğlu ilə birlikdə Kəbə evinin bünövrəsini qaldırdığı zaman etdiyi dualaın təsadüfü olmamasına işarədir. Buradan belə nəticə çıxartmaq olar ki, saleh əməllə dua arasında güclü bağlılıq vardır. Buna görədə İbrahim peyğəmbər səmimi qəlbdən bu saleh əmələ bağlanaraq duasını diləmişdir.

Allah təala buyurur: “O kəslər ki, ey bizim pərvərdigarımız-deyə, nida edərək diləyərlər: “Həqiqətən, biz iman gətirmişik, bizim günahlarımızı əfv elə və bizləri cəhənnəm əzabından qoru.” (Ali İmran surəsi, 169-cu ayə)

Bu ayədə bir qədər təfəkkür edən şəxsə kifayətdir ki, əfv ilə iman gətirmək arasında olan sıx əlaqəni anlasın. Əgər bu qəbildən olan ayələri təhqiq etsək görərik ki, bu ayələr açıq-aşkar deyil, sadəcə olaraq, söhbəti gedən mətləbə işarə edir. Lakin peyğəmbərdən gələn hədislərdə saleh əməlin dua zamanı xatırlanması Allahın rəhmətini qazanmaq üçün vasitələrdən biri kimi qeyd edilir. Beləliklə, Onun rəhməti bəndəyə nazil olaraq diləyini qəbul dərəcəsinə çatdırır.

İndi isə hər iki məzhəbin (Əhli sünnət və şiə) rəvayət etdiyi əhvalatı təqdim edirik. Əl Buxari ibn İmrandan, o da Allahın rəsulundan belə nəql edir: “Sizdən əvvəlki ümmətlərdən üç nəfər yol ilə gedirmişlər. Birdən yağışa düşürlər. Bu vaxt bir mağaraya pənah aparırlar. Mağaraya girən kimi daşlar tökülüb onun girişini bağlayır. Bir-birilərinə belə deyirlər: “And olsun Allaha bizi buradan yalnız düzgünlük xilas edə bilər. Elə isə bizdən hər birimiz düzgün əməllə dua etsin.

Onlardan biri belə deyir: “Ey mənim Allahım, Sən bilirsin ki, mənim bir işçim var idi. O, düyü sahəsinin bir hissəsində işləyirdi. Lakin oranı tərk edib getdi. Mən həmin sahəyə getdim və çəltik əkdim. Bir gün mən ondan bir inək almalı oldum. O, mənim yanıma gəlib məndən zəhmət haqqını tələb etdi. Mən ona belə dedim: “O inəyi götür apar”. O, öz tələbinə davam

edərək dedi: “Sən mənə düyü sahəsinin bir hissəsini verməlisən.” Cavabında isə yenə də ona dedim ki, o inəyi götür apar. O inək həmin sahənin məhsulundandır. Həmin adam inəyi özü ilə apardı. Ey Allahım, Sən bilirsən ki, mən bu işi Sənin qorxundan etdim. Bizi xilas et. Bunun nəticəsində qaya parçası bir qədər geri çəkildi.

Ikinci isə belə dedi: “Ey mənim Allahım, sən bilirsən ki, mənim qoca atam və anam var idi. Hər gecə onlara öz qoyunumun südündən gətirərdim. Bir gecə onlara süd gətirməyi gecikdirdim. Mən evə daxil olanda artıq onlar yatağa girmişdilər. Ailəm və uşaqlarım aclıqdan ağlaşırdılar. Atam anamı içirtməyincə onlara bir şey verməzdim. Nə onları oyatmaq, nə də ki, südü içərək rahat olmalarını tərk etmək istəmədim. Bu minvalla dan yeri sökülünə qədər gözlədim. Ey Allahım, Sən bilirsən ki, mən bu işi sənin qorxundan etdim. Bizi xilas et. Elə bu an qaya parçası mağaranın ağzından çəkildi və onlar rahatlıqla göy üzünü müşahidə etdilər.

Onların üçüncüsü isə belə dedi: “Ey mənim Allahım, Sən bilirsən ki, mənim bir əmim qızım var idi. O, mənə hamıdan sevimli idi. Mən onu cinsi əlaqəyə sövq etdim, amma o, imtina etdi. Və mənə dedi ki, əgər ona yüz dinar gətirsəm mənimlə razılaşacaq. Mən həmin məbləği əldə etmək üçün çalışdım və sonda bu məbləği əldə edib ona gətirdim. Məbləği ona verəndən sonra onunla cinsi əlaqəyə girmək üçün mənə fürsət verdi. Mən onun qarşısında dayanan zaman mənə belə dedi: “Allahdan qorx və mənimlə ancaq şəriətin buyurduğu yolla əlaqəyə gir!” Mən ayağa qalxıb yüz dinarı orada qoyaraq bu işi tərk etdim. Allahım, sən bilirsən ki, mən bu işi Sənin qorxundan etdim, bizə nicat ver! Allah təala onlara həmin çıxılmaz vəziyyətdən nicat verdi və onlar mağaranı tərk etdilər.”[19]

Peyğəmbər bu hədislə demək istəyir ki, ümmətində olan hər bir kəs öz gördüyü saleh əməli duasının qəbul olmasi üçün vasitə qərar verə bilər. Əgər bu kimi şeylər yalnız keçmiş ümmətlərə məxsus olsaydı onda bunu bəyan etməli idi. Bu hədis bəzi söz fərqlərinə baxmayaraq, həm Əhli sünnət, həm də şiə məzhəbinin alimləri tərəfindən rəvayət olunmuşdur.

Əhməd ibn Xalid Əl Bərqi “Məhasin” kitabında Əbdürrəhman ibn əbi Nəcrandan, o isə Əl Mufaddal ibn Salehdən, o da Cabir Əl Cufidin belə rəvayət edir: “Allahın rəsulu belə buyurmuş: “Bir gün üç nəfər yer kürəsini səyahət etməyə çıxmışlar. Uca bir dağın qülləsində bir mağarada Allaha ibadət edərkən dağın başından bir qaya parçası dığırlanıb mağaranın ağzını tamamilə örtür. Onlar biri-birilərinə belə dedilər: “Ey Allahın bəndələri, and olsun Allaha ki, bizi bu düşdüyümüz çətinlikdən yalnız Allaha olan sədaqətimiz xilas edəcək! Elə

[19] Əl Buxari, “Səhih”, Dəməşq çapı, İbn Kəsir mətbəəsi, 3-cü cild, səh. 1278

isə, sırf Allah yolunda gördüyünüz və bununla da günahdan nicat tapdığınız saleh əməllərdən söyləyin.”

Onlardan biri sözünə başlayaraq belə dedi: “Ey Allahım, Sən bilirsən ki, mən bir qadını onun gözəlliyinə vurularaq istəyirdim. Onun yolunda çoxlu var-dövlət sərf etdim. Axır ki, istədiyimə nail oldum. Lakin onunla cinsi əlaqəyə girmək istərkən cəhənnəm odunu yada saldım. Sənin qorxundan fəryad edə-edə onun yanından çıxdım. Ey Allahım, bu qayanı bizim qarşımızdan götür.” Bu zaman qaya parçası çartladı və onlar rahatlıqla bu çatı müşahidə etdilər.

Onlardan ikincisi isə belə dedi: “Ey Allahım, Sən bilisən ki, mən bir qrup işçini torpaq sahəsində əkin işi üçün icarə etmişdim və hər bir kişiyə yarım dirhəm söz vermişdim. İşlərini qurtardıqdan sonra onlara zəhmət haqlarını verdim. Amma onlardan biri belə dedi: “Mən iki nəfərin işini görmüşəm, and olsun Allaha gərək mənə bir dirhəm verəsən.” O, haqqını tərk edib getdi. Həmin yarın dirhəmlə sahəni becərdim və Allah təala mənə ruzi-bərəkət yetirdi. Bir gün həmin yarım dirhəmin sahibi gəlib haqqını tələb etdi. Mən ona on min dəyərində mal verdim. Allahım, Sən bilirsən ki, mən bu işi sənin qorxundan etdim, bizi buradan xilas et.” Bu zaman qaya parçası elə aralandı ki, onlar (təəccüblə) bir-birilərinə baxdılar.

Onların üçüncüsü isə belə dedi: “Ey Allahım, Sən bilirsən ki, bir gün atam və anam yatmışdılar. Mən onlara bir qab süd gətirmişdim. Həm südün xarab olmasından qorxdum, həm də onları yuxudan oyatmağa ürək etmədim, fikirləşdim ki, onlara çətin olar. Beləcə heyrətdə qalmışdım ki, onlar oyandılar və südü içdilər. Ey Allahım, Sən bilirsən ki, mən bu işi Sənin razılığını qazanmaq üçün etdim. Bizi buradan xilas et.” Qaya parçası mağaranın ağzından aralandı və yola düşdülər. Sonra Allahın rəsulu əlavə edərək buyurdu: “Hər kim Allaha sadiq olsa nicat tapar.”[20]

Təfsir alimi Təbərsi belə yazır: “Quranda xatırlanan “Əshab əl Raqim” həmin üç nəfərdirlər ki, mağaraya girmiş və mağaranın ağzı örtülmüşdür. Onlar bir-birilərinə belə müraciət etdilər: “Gərək bizlərdən hər birimiz öz gördüyü əməli xatırlayaraq Allaha dua etsin ki, nicat tapaq.” Və belə də etilər. Nəticədə Allah təala onlara nicat verdi. Bu hədisi Əl Nüman ibn Bişr də nəql etmişdir.

Mənə elə gəlir ki, yuxarıda göstərilənlər bizim mətləbimizi şərh etmək üçün kifayətdir. Daha çox şərh istəyənlər isə rəvayət və hədis kitablarına müraciət edə bilər.

[20] Əhməd ibn Məhəmməd ibn Xalid əl Bərqi, “Kitab əl məhasin”

Allah rəsulunun duası ilə təvəssül

İslam peyğəmbərinin Allah dərgahında heç kimə nəsib olmayan olduqca uca məqamı vardır. O, məxluqların ən üstünüdür. Qurani Kərimdə peyğəmbərin fəzilətlərindən bəzisi barəsində təriflər gəlmişdir. Bu təriflər yalnız bəzi peyğəmbərlər barəsində deyilmişdir. Əgər peyğəmbər barəsində gəlmiş ayələri toplasaq söhbətimiz uzanar. Buna görə də onlardan bəzilərinə işarə etməklə kifayətlənəcəyik.

Qurani Kərim Allah rəsulunun yüksək məqamına işarə edərək ona hörmət edilməsi və əzizlənməsinin lüzumunu vurğulamış və onun digər insanlar kimi çağırılmasını pisləmişdi: "Ey iman gətirənlər, səslərinizi peyğəmbər səsindən uca etməyin və bir-birinizin yanında səslənizi qaldırdığınız kimi onun yanında qaldırmayın ki, siz dərk etmədiyiniz bir halda əməllərininiz batil olmasın." (Əl Hucurat surəsi, 2-ci ayə) Və həmçinin buyurmuşdur: "Bir-birilənizi səslədiyiniz kimi peyğəmbəri səsləməyin..." (Əl Nur surəsi, 63-cü ayə)

Peyğəmbərin uca kamalına, başçılıq və rəhbərlik rəmzi olaraq bütün möminlərə nümunə olmasına işarə edərək belə buyurur: "Həqiqətən, Allah rəsulunda Allaha və Axirət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunə vardır." (Əl Əhzab surəsi, 21-ci ayə)

Həmçinin onun Allah yanında olan əzəmətinə və kəramətinə işarə edir. Belə ki, Allah təala və mələklər ona salavat göndərir və ona salavat və salam göndərməyi möminlərə əmr edərək belə buyurur: "Allah və Onun mələkləri peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər, ona salavat göndərin və tamamilə ona təslim olun." (Əl Əhzab surəsi, 56-cı ayə)

Peyğəmbərin batini səfa və gözəlliyinə, ruhunun qüvvəsinə və xilqətinin gözəlliyinə işarə edərək belə buyurur: "Həqiqətən, sən əzəmətli əxlaq sahibisin." (Əl Qələm surəsi, 4-cü ayə)

Onun gecələr etdiyi ibadət və itaətinə işarə edərək buyurur: "Həqiqətən, sənin rəbbin bilir ki, sən və sənin olan möminlərdən bir qrupu gecənin təxminən üçdə ikisini ibadət üçün oyaq qalırsız." (Əl Müzzəmmil surəsi, 20-ci ayə)

Və həmçinin elminin dərinliyinə işarə edərək buyurur: "...və bilmədiyini sənə öyrətdi. Sənin üzərində olan Allahın fəzli böyükdür." (Əl Nisa surəsi, 113-cü ayə)

Peyğəmbərin Yer üzərində ilahi əzabın qarşısını alan iki amandan biri olmasını xatırlayaraq belə buyurur: "Hər nə qədər ki, sən onların arasındasan və hər nə qədər ki, onlar tövbə edirlər Allah onlara əzab verməz." (Əl Ənfal surəsi, 33-cü ayə)

Allah rəsulunun kəraməti elə bir həddədir ki, Quran Allahın və onun adını çəkərək onlar barəsində eyni feli işlədir: “...Allah və Onun rəsulu sizin əməllərinizi görür. Sonra aşkar və gizlini bilənə (Allaha) doğru qaytarılacaqsınız...” (Əl Tövbə surəsi, 94-cü ayə)

Allah təala peyğəmbərə itaət barəsində belə buyurmuş: “...hər kəs Allaha və Onun rəsuluna itaət etsə əzəmətli feyzə yetişmişdir.” (Əl Əhzab surəsi, 71-ci ayə)

Bu və bunun kimi ayələrdə Allah təala peyğəmbərin adını öz adı ilə bərabər çəkir və yaxud da hər ikisinin barəsində eyni feli işlədərək ona əzəmət verir və onun Allah dərgahında olan məqamına işarə edir. Belə olan halda peyğəmbərin duası rədd olunmaz və daim qəbul olunar. Bununla da onun duasından yapışan kəs elə möhkəm bir sütundan yapışmış ki, həmin bu xüsusiyyətə görə də Allah təala günahkar bəndələrinə müraciət edərək onun duasından yapışmağı əmr edir: “Biz bütün peyğəmbərləri Allahın izni ilə onlara itaət olunmaq üçün göndərdik. Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər.” (Əl Nisa surəsi, 64-cü ayə)

Başqa bir ayadə görürük ki, Allah təala münafiqlərə xitab edib peyğəmbərə doğru getmələrini əmr edir ki, peyğəmbər onlar üçün Allahdan bağışlanmaq diləsin. Amma onlar bu xitabı qulaq ardına vururlar. Bu mənzərəni Quran belə vəsf edir: “Onlara-“ Gəlin, Allah rəsulu sizlər üçün bağışlanmaq diləsin”- deyilən zaman boyun qaçırarlar. Görərsən ki, onlar təkəbbürlü halda sözlərindən üz çevirərlər.” (Əl Münafiqun surəsi, 5-ci ayə)

Bütün bunlar bizə tam yəqinliklə deməyə əsas verir ki, peyğəmbərin duası həmişə qəbul mərkəzindədir. Çünki bu dua və çağırış mənəvi saflıq və paklığın nəticəsidir. Peyğəmbər duasının digər müsəlmanların duası kimi olduğunu iddia etmək açıq-aşkar peyğəmbərə zülm etmək deməkdir.

Keçmiş səmavi dinlərdə saf və ali mənəviyyata malik insanın duası ilə təvəssül etmək çox yayılmış bir fenomen idi. Yaqub peyğəmbərin oğlanları etdikləri işin üstünün açıldığını gördükdə atalarının dualarını vasitə qərar verirlər. Bu mətləbə işarə edən Quran belə buyurur: “Ey bizim atamız, günahlarımızın bağışlanmasını Allahdan istə. Biz xəta edənlərdən olmuşuq. (Yaqub) dedi: “Tezliklə sizin üçün rəbbimdən bağışlanmaq dilərəm. Həqiqətən, O, bağışlayan və rəhmlidir.” (Yusuf surəsi, 97 və 98-ci ayələr)

Bu ayələr aşkarcasına göstərir ki, Allahın sonsuz rəhməti bəzən öz bəndələrinə birbaşa, bəzən isə ən gözəl məxluqatın və peyğəmbərlərin ən şərəflisinin vasitəsilə nazil olur. Bununla da bəzi insanları “Allah təala öz bəndəsinə şah damarından daha yaxındır və öz bəndəsinin halını bilir, onu görür və eşidir, buna görə də heç bir vasitəyə ehtiyac yoxdur”

kimi sözlərinin nə qədər də məntiqsiz və puç olduğu aydın görünür. Bu kimi sözləri yalnız və yalnız Quranın ayələri, peyğəmbər və onun Əhli beytinin dilindən eşidilən hədislərlə tanışlığı olmayanlar və həmçinin səhabələrin həyat tərzindən xəbədar olmayan cahillər deyə bilər. Çünki söhbət Allahın öz bəndəsinin halından xəbərdar olub olmamasından getmir, əksinə söhbət başqa bir məcrada, daha dəqiq desək, özünə zülm edən bəndənin duasının Allah dərgahına ucalmağa qabiliyyəti olmamasından gedir. Lakin peyğəmbərin duasını öz duasına əlavə edən bəndənin duası Allah dərgahında eşidilir və qəbul edilər.

Bu məqamda Misirin "Əl Əhzər" universitetinin ustadlarından biri olan Məhəmməd əl Fəqqinin söylədiyi nitqi xülasə olaraq xatırladırıq: "Həqiqətən, Allah təala öz peyğəmbərini şərafətli ayələrlə şərəfləndirmiş, ən əziz, kamil və uca ayələri ilə əzizləmiş, ona zahiri və batini nemətlərini bəxş etmiş, ona qədr-qiymət taclarının ən əzəmətlisini, məqam və heybət əklillərinin ən gözəlini qoymuşdur. Onun istər diri ikən, istərsə də ölü ikən, məqam və mənsəbini xatırlayaraq belə buyurmuşdur: "Allah və Onun mələkləri peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər, ona salavat göndərin və tamamilə ona təslim olun." (Əl Əhzab surəsi, 56-cı ayə) Allahın və mələklərinin salavatından daha üstün və əzəmətli nə ola bilər?!

Allahın peyğəmbərə olan tərif və mədhi bu həddə dayanmır, əksinə onun barəsində deyilən bir çox tərif və mədhlər təəccüb doğurur, diqqətləri onun olduqca böyük əzəmətinə cəlb edir. Bir bax, gör Quran nə buyurur: "And olsun sənin canına, həqiqətən, bunlar öz məstliklərində sərgərdandırlar." (Əl Hicr surəsi, 72-ci ayə) Bu ayədə Allah təala öz peyğəmbərinin canına and içməklə insan əqlini dəhşətə gətirir. Qurani Kərim buyurur: "Və həqiqətən, əgər bilsəniz, bu nə qədər əzəmətli bir anddır." (Əl Vaqiə surəsi, 76-cı ayə). İbn Abbas belə buyurmuşdur: "Allah təala Muhəmməd peyğəmbərdən əziz bir məxluq yaratmamışdır."

Məlumdur ki, Allah təala İslam peyğəmbərindən başqasının canına and içməyib. Qurani Kərim peyğəmbərin ali məqamına və qədr-qiymətinə işarə edən ayələrlə doludur. Peyğəmbərə itaəti Allaha itaət qərar verərək buyurmuşdur: "Hər kim peyğəmbərə itaət etsə, həqiqətən, Allaha itaət etmişdir..." (Əl Nisa surəsi, 80-cı ayə). Həmçinin Allah təala bəndələrinə olan məhəbbətini peyğəmbərin itaətinə bağlamışdır. Belə ki, Allah təala peyğəmbərə əmr edərək buyurur: "De əgər Allahı sevirsinizsə mənə (peyğəmbərə) tabe olun ki, Allah sizləri sevsin..." (Ali İmran surəsi, 31-ci ayə)

İslam peyğəmbərinin qədr-qiymətinə, Allahın öz rəsuluna olan məhəbbətinin miqdarına və peyğəmbərinə olan hörmətinə dəlalət edən ayələrdən birində belə buyrulur: "Allah təala peyğəmbərlərə kitab və hikmət verərək əhd-peyman almış ki, Allah tərəfindən bir elçi gəlib

onlarda olan şeyləri təsdiq edərsə ona inansınlar və kömək etsinlər...” (Ali İmran surəsi, 81-ci ayə). Həzrəti Əli (ə) buyurmuşdur: “Allah təala adəmdən sonra gələn bütün peyğəmbərlərdən Muhəmməd peyğəmbər üçün əhd almışdır ki, əgər hər hansı bir peyğəmbərin dövründə göndərilsə ona iman gətirsin, kömək etsin və onunla əhd-peyman bağlasın.”

Mələklər içərisində özünəməxsus məqama malik olan Cəbrail mələyinin peyğəmbərə merac günü Məkkədən Beyt əl Məqdisə qədər həmsöhbət olması şərəf və iftixar təzahürlərindəndir. Bu hadisə ümmətlər tarixində peyğəmbərin əzəmətinə dəlalət edən ən uca nişanələrindəndir. Sizə təqdim etdiyim bu nişanələrdə iman gətirənlər üçün rəhmət, hidayət və bəsirətin kifayət qədər olmasına baxmayaraq, bundan başqa məqamların da xatırlanmasında heç bir maneə görmürəm. Həmin nişanələrdə qəflətdə olanlar üçün təfəkkürə böyük fürsət var. Ola bilsin onları qane edib hidayət etmiş olum. Ən gözəl təzahürlərdən biri duaya başlayanda və onu xətm edəndə peyğəmbərə göndərilən salavatdır. Bu, duanın qəbul olmasına işarədir. Ömər və Əlidən (ə) rəvayət olunmuşdur ki, onlar dua edən və peyğəmbərə salavat göndərməyən bir kişiyə belə demişlər: “Həqiqətən, dua göylə yer arasında asılı vəziyyətdədir. Peyğəmbərə salavat göndərməyənə qədər o, nə ucalmaz, nə də onun üzünə səmanın qapıları açılmaz. Bu məzmuna dəlalət edən hədisin peyğəmbər tərəfindən söylənilməsi də iddia edilmişdir.

Son olaraq, Allah təalanın “Sənin səs-sorağını ucaltdıq” (Əl İnşirah surəsi, 4-cü ayə) sözü peyğəmbərin uca məqamına və qədr-qiymətinin əzəmətinə dəlalət edir. Yəni Allah sənin adını öz adı ilə yanaşı çəkmiş və imanı yalnız kəlimeyi şəhadətə bağlamışdır. Bu zəmində olan dəlil və sübutlar saya gəlməzdir. Peyğəmbərin sahəbəsi və şairi Həsən ibn Sabit belə demişdir:

Peyğəmbərliyə bir xatəm kimi şərəfləndirib	Allahdan bir nurudur parlar və görünər
Peyğəmbərin ismini birgə etdi isminə Tanrı	Müəzzin azanda edərək beş dəfə təkrar
Ayırdı ismini ismindən əzəmət verərək	Ərşin sahibidir Mahmud o, isə Muhəmməd[21]

[21] من الله نور يلو ح و يشهد — اغرعلّية للذبو ة خا تم
اذ اقال في الخمس الموَ ذن اشهد — و ضم ا لا له اسم الذبي الى اسمه
فذوالعر ش محمو د و هذا محمد — وشق له من اسمه ليجله

Peyğəmbər duasının qəbul olmasının həqiqi səbəbi şübhəsiz onun pak ruhu, kəramətli nəfəsi və Allaha hədsiz dərəcədə olan yaxınlığıdır. Elə buna görə də duaya xüsusi təsir qüvvəsi bağışlayır və başqasının duası üçün köməkçi rol oynayır.

Lakin söhbəti gedən mətləb barəsində güclü rəy ixtilafı yaranmışdır. Bu ixtilafın əsas məqzi peyğəmbər duası ilə təvəssül etmənin yalnız onun bu dünyadakı həyatı ilə bağlı olub olmamasıdır. Bəziləri iddia edirlər ki, bu növdən olan təvəssül yalnız peyğəmbərin diriliyinə bağlıdır. Lakin dəlillərlə sübut olunacq ki, bu növ təvəssül nəinki peyğəmbərin diri olan halına, Bərzəx aləmindəki halına da şamildir.

Mömin qardaşın duası ilə təvəssül

Mömin qardaşın duası ilə təvəssül etmək duanın qəbul olması üçün Allahın qərar verdiyi vasitələrdən biridir. Bir çox Quran ayələri açıq-aşkar iman gətirən şəxslər üçün mələklərin və zaman cəhətdən sonra gələn möminlərin özlərindən əvvəlki mömin qardaşları üçün dua etməsinə dəlalət edir. Bu, onu göstərir ki, mömin qardaşın öz din qardaşı üçün etdiyi dua bəyənilən və qəbul olunan bir fenomendir. Elə isə, Allaha üsyan etmiş günahkar bəndənin öz mömin qardaşının duasını vasitə qərar verməsi vacibdir. Qurani Kərim bu zəmində belə buyurmuşdur: “Ərşi daşıyanlar (mələklər) və onun ətrafında olanlar öz rəblərini həmd edərək təsbih deyir, Ona iman gətirərlər və möminlər üçün bağışlanma istəyərək (deyirlər): “Ey bizim rəbbimiz, Sənin rəhmətin və elmin hər şeyi əhatə edir. Tövbə edib yoluna tabe olanları əfv et və onları cəhənnəm əzabından qoru.” (Əl Ğafir surəsi, 7-ci ayə)

Başqa bir ayədə buyurur: “(Mühacir və ənsardan) sonra gələnlər belə deyirlər: “Ey bizim rəbbimiz, bizi və imanda bizi qabaqlayan qardaşlarımızı bağışla və iman gətirənlərə qəlblərimizdə kin qərar vermə. Ey rəbbimiz, həqiqətən, Sən mehriban və rəhmlisən.” (Əl Həşr surəsi, 10-cu ayə)

Bu ayələrdən göründüyü kimi ərşi daşıyan mələklər və sonra gələn möminlər dua etməsi duanın qəbul olma səbəblərindəndir. Buna görə də hər bir şüurlu müsəlmana vacibdir ki, duanın qəbulu üçün bu səbəbdən yapışsın.

Bu mənaya dəlalət edən hədislər də vardır. Müslüm və Tirmizi Abdullahdan, o da Əzr ibn əl Asdan və o peyğəmbərdən nəql edərək belə demişdir: "Əgər müəzzin (azan verən) səsini eşitsəniz onun dediyini siz də deyin, sonra mənə salavat göndərin. Çünki hər kim mənə salavat göndərsə Allah təala özü ona on dəfə salavat göndərər. Sonra Allahdan mənim üçün vəsilə istəyin. Həqiqətən, vəsilə cənnətdə bir məqamdır. O, Allahın yalnız bir bəndəsinə layiqdir. Ümidvaram ki, mən həmin bəndə olam. Hər kim mənim üçün vəsilə istəsə, şəfaət ona nazil olar."[22]

Hədisin zahiri mənasından belə məlum olur ki, peyğəmbər öz ümmətinin duasının Allahın dərgahında vasitə qərar verir. Şayəd bu duanın vasitəsilə Allah təala onu cənnətdə vəsiləni və ən gözəl məqamı verə. Əvəzində isə peyğəmbərin şəfaəti dua edən şəxsə nazil olar. Əgər peyğəmbər bu əzəməti ilə öz ümmətinin duasını vasitə qərar verirsə, onda biz nə üçün mömin qardaşımızın duasını vasitə qərar verməyək?!

Əhli beytdən gələn hədislərdə bu mətləb daha açıq-aşkar özünü büruzə verir. Həqiqəti aşkara çıxartmaqdan ötrü onlardan bəzilərini xatırlayaq. Çünki Əhli beyt peyğəmbərin bizə əmanət qoyub getdiyi iki şeydən biridir.

Məhəmməd ibn Əclan rəvayət edir ki, Abu Abdullah (İmam Sadiq (ə)) belə buyurarmış: "Əli ibn Hüseyn (ə) Ramazan ayı daxil olanda nə bir qulu, nə də bir kənizi (ədəbləndirmək üçün) vurmazdı. Amma əgər qullardan və yaxud da kənizlərdən hər hansı biri günah işlətsəydi onun günahını tarixi ilə bir yerə yazıb cəzalanmadığını qeyd edərmiş. Ramazan ayının son gecəsi onların işlətdiyi günah dəftərini qapayaraq onları çağırıb öz ətrafına toplardı. Sonra onlara günah dəftərini göstərib bir-bir soruşardı: "Yadındadır filan gün günah etmişdin və mən də səni cəzalandırmadım?" Həmin qul və ya kəniz də cavabında belə deyərdi: "Yadımdadır, ey peyğəmbərin nəvəsi." Bir-bir hamısı etiraf edəndən sonra onların ortasında dayanıb belə deyərdi: "Səslərinizi ucaldıb nida edin: "Ey Əli bn Hüseyn, sənin rəbbin etdiyin əməllərin hamısını sən yazdığın kimi yazmışdır. Allahdan bağışlanmaq dilədiyin kimi bizləri də əfv et. Rəbbinin səni əfv etməyini istədiyin kimi bizləri də bağışla. Beləcə davam edəndən sonra onlara deyərdi: "Belə dua edin: "Ey Allahım, Əli ibn Hüseyni bizi əfv etdiyi kimi əfv et. Onu, bizi köləlikdən azad etdiyi kimi cəhənnəm odundan azad et." İmam da onların bu nidasının cavabında belə deyərdi: "Amin, ey aləmlərin rəbbi!" Üzünü onlara tutaraq: "Gedin. Artıq sizi əfv etdim. Sizləri Allah yolunda, Onun əfvini və məni azad etməyini ümid edərək, azad etdim."-deyərdi.[23]

[22] Müslüm, "Səhih", "Kitabəl Səlat"., Əl Tirmizi, "Səhih", "Kitab əl məaqib"
[23] Əllamə Məclisi, "Bihar ül ənvar", 46-cı cild, səh102

Əhli beyt imamlarının səhabələri onların dualarını vasitə qərar verərdilər. Budur, onlardan biri Əli ibn Məhəmməd əl Həccal İmam Hadiyə (ə) yazaraq belə xahiş etdi: "Ayağımda bir xəstəliyə düçar olmuşam və vacib olunan işləri yerinə yetirmək üçün ayağa qalxmaq iqtidarında deyiləm. Əgər məsləhət bilirsənsə məni dua et ki, Allah təala bu xəstəliyi qaldırsın və mənə vacib etdiyi əmanəti əda etmək üçün kömək olsun..."[24]

Peyğəmbərin bərzəx həyatındakı duası ilə təvəssül

Bundan əvvəlki söhbətlərimizdə Quranın günahkar bəndələrə peyğəmbər duası ilə təvəssül etməsi davətini qeyd etdik. Bəziləri bu ayəni peyğəmbərin cismani həyatına aid edərək belə iddia edirlər ki, peyğəmbər həyatını dəyişib Bərzəx aləminə köçməsi ilə bizlərdən əlaqəsi kəsilib. Bu iddia Quran ayəsinin yalnız zahirinə uyğun gəlir. Lakin bu nəzəriyyəni elmi dəlillərlə münaqişə etmək olar. Əgər Quran ayələri və yaxud da hədislərlə peyğəmbərin bərzəx aləminə köçəndən sonra biz insanlarla əlaqəsinin kəsilməsini sübut etsək, onda həmin Quran ayəsini yalnız peyğəmbərin cismani həyatına aid etmək düzgün olmazdı, əksinə həm bu dünya, həm də ki, bərzəx aləminə köçəndən sonra da bizimlə əlaqəsinin kəsilməməsi sübut olunacaq. Xüsusilə, bu dəlillər səhabələr və tabeinlərin əməlləri tərəfindən öz dəstəyini tapmışdır. Ümumiyyətlə, bu mətləbi isbat etmək üçün Qurani Kərim və peyğəmbər sünnətini rəhbər tutaraq bir neçə əsas nöqtəyə toxunmaq lazımdır. Bu əsas nöqtələr aşağıdakılardan ibarətdir:

1. Peyğəmbər və övliyaların Bərzəx aləminə köçəndən sonrakı həyatları;

2. Bizimlə onlar arasındakı əlaqə. Belə ki, onlar bizim söhbətlərimizi eşidib, çağırış səslərimizi duyaraq qəbul edirlər;

3. Onlar Bərzəx aləminə köçəndən sonra səhabələrin onları Allah dərgahında vasitə qərar vermələri.

1. Peyğəmbər və övliyaların Bərzəx aləminə köçəndən sonrakı həyatları

Bu mətləb digərlərindən daha mühümdür. Bunu iki növdən olan dəlillərlə sübut etmək mümkündür: birinci növdən olan dəlillər onların həyatlarını və diri olmalarını sübut etsə də, ikinci növdən olan dəlillər isə bu mətləbi dolayısı yolla sübut edir. Burada bu dəlilləri sizlərə təqdim edirik:

[24] Əl İrbili, "Kəşf əl ğummə"

1. Quran ayələri şəhidlərin diri olmalarını açıq-aşkar buyurur: “(Ey peyğəmbər) Allah yolunda qətlə yetirilmişləri ölü güman etmə, əksinə onlar diri və öz rəblərinin yanında qidalanırlar. Allahın onlara öz fəzlindən verdikləri nemətlərə sevinir, özlərindən sonra belə onların sıralarına birləşməyən (mücahidlərə) qorxu və hüzn olmayacağına müjdə verirlər. Allahın nemətlərinin və mömin insaların mükafatlarının zay olmayacağını onlara müjdə verirlər.” (Ali İmran surəsi, 169, 170 və 171-ci ayələr)

Bu ayə aşkarcasına şəhidlərin diri olmalarını sübut edir. Çünki qidalanmaq, sevinmək və müjdə vermək kimi xüsusiyyətlər diri insanlara məxsusdur. Allah təala bu mətləbə işarə etməklə onlara verdiyi qədr-qiyməti və kəraməti göstərir. Bununla da “şəhidin ölməsi ilə həyatının bitməsi” nəzəriyyəsini puç edir. Əgər şəhid öz canını verməklə peyğəmbərin gətirdiyi din yolunda şəhid olursa, görəsən, bu şəhidlərin diri, lakin məxluqatın ən şərəfləsi və ən üstünü və şəhidlərin rəhbəri olan peyğəmbərin ölü olmasını təsəvvür etmək olarmı?! Bunu sağlam düşüncəyə malik insan heç bir vəchlə qəbul edə bilməz! Peyğəmbərin ölü olmasını dilinə gətirən hər bir müsəlman qəlbi ilə bunu rədd edir!

2. Quranın Yasin surəsində Həbib Nəccar barəsindəki əhvalatı yada salaq. Heç bir ali məqama malik olmayan bu insan yalnız Allah tərəfindən göndərilmiş elçiləri təsdiq etmişdi. Bunun nəticəsində öz qövmü tərəfindən şiddətli işkəncələrə məruz qalaraq dünyasını dəyişir. Öləndən sonra Allah təala ona belə buyurur: “(Ona) Cənnətə daxil ol deyildi.” (Yasin surəsi, 26-cı ayə) Cənnətə daxil olandan sonra qövmünün onun halından xəbərdar olmasını arzulayaraq belə deyir: “(O,) dedi: “Ey kaş, mənim qövmüm Allahın məni bağışladığını və əzizlədiyi bəndələrdən qərar verdiyini biləydi!” (Yasin surəsi, 27-ci ayə)

Şübhəsiz ki, Həbibin daxil olduğu cənnət Qiyamət günündən əvvəl olmuşdur. Çünki o, öz qövmünün onun halından xəbərdar olmasını arzulayır, bir halda ki, onlar dünya həyatındadırlar, baxmayaraq ki, sonradan onlar Allah tərəfindən əzaba düçar olurlar. Quran bu səhnəni təsvir edərək belə buyurur: “Biz ondan (Həbibdən) sonra onlara səmadan bir ordu göndərmədik və belə də etməzdik. Bu bir səma fəryadından başqa bir şey deyildi və birdən onlar öz yelərində tərpənməz olaraq durdular.” (Yasin surəsi, 28 və 29-cu ayələr). Əgər şəhidlər, saleh insanlar- Allah elçilərini təsdiq edən Həbib Nəccar kimi insanlar-diridirlərsə və öz rəblərinin yanında qidalanırsa, onda peyğəmbər və şəhidlərdən ön sırada olan Allahın nemət vediyi peyğəmbərlər, siddiqlər necə?! Allah təala belə buyurur: “Hər kim Allaha və peyğəmbərə itaət edərsə, onlar Allahın nemət verdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və saleh insanlara birlikdədir. Onlar necə də gözəl dostlardır!” (Əl Nisa surəsi, 69-cu ayə). Əgər şəhid diri olub qidalanırsa, onu tərbiyə edib bu məqama yetişməsinə səbəb olan peyğəmbər isə daha da artıq diri olmağa layiqdir!

Bu mövzu sizə təqdim etdiyimiz əsas nöqtələrdən ikincisidir. Peyğəmbər, siddiqlər və şəhidlərin, sadəcə olaraq, Bərzəxdə diri olmaları bizim mətləbimizə heç cür yardım edə bilməz. Bunun üçün onlarla əlaqənin, başqa sözlə desək, bizi eşidib cavab vermək iqtidarında olmalarını isbat etmək lazımdır. Burada mətləbəmizə birbaşa əlaqəsi olan Quran ayələrini tilavət etmək istərdik. Halbuki psixologiya elmi bir çox təcrübələrdən sonra bu əlaqələrin mümkünlüyünü sübut etmişdir. Lakin biz bu elmi təcrübələri bir kənara qoyaraq yalnız Quran ayələri və peyğəmbər və Əhli beytdən gələn hədislərə dəlil gətirmək istəyirik:

1. Saleh peyğəmbər həlak olmuş qövmə müraciət edir:

Allah təala Qurani Kərimdə Saleh peyğəmbərin öz qövmünü təbliğ və onları tək olan Allahın ibadətinə dəvət etməsini və həmin qövmün Saleh peyğəmbərin gətirdiyi möcüzəni nece həlak etdiklərini vəsf edir. Saleh peyğəmbər Allahın qüdrəti ilə dağdan öz balası ilə birlikdə dəvə çıxardır. Lakin həmin qövm dəvənin ayaqlarını kəsərək onu həlak edirlər. Bununla da Allahın qəzəbi onlara nazil olur. Qurani Kərim buyurur: "(nəhayət) Yerin titrəyişi onları əhatə etdi və onlar öz evlərində ölü kimi tərpənməz oldular. (Saleh peyğəmbər) onlardan üz çevirib belə dedi: "Ey mənim qövmüm, mən artıq sizlərə öz rəbbimin müraciətini çatdırdım və sizə nəsihət verdim, lakin siz nəsihət verənləri sevməzsiniz." (Əl Əraf surəsi, 78 və 79-cu ayələr)

Göründüyü kimi Allah təala Saleh peyğəmbərin qövmünün qəti şəkildə həlak olmasını bildirərək, xəbər verir ki, onlar əzaba düçar olandan sonra peyğəmbər onlardan üz çevirib onlara belə müraciət edir ki, artıq mən rəbbimin müraciətini çatdırdım, lakin siz nəsihət edənləri sevməzsiniz.

Bu xitab Saleh peyğəmbərdən həmin qövm həlak olandan sonra baş verir. Saleh peyğəmbərin "Lakin siz nəsihət edənləri sevməzsiz" sözü aşkarcasına işarə edir ki, onlar hətta həlak olandan sonra da təkəbbür və lovğalıq üzündən onun bu sözünü qəbul etmirlər.

2. Şüeyb peyğəmbərin həlak olmuş qövmünə müraciət etməsi:

Saleh peyğəmbərin əhvalatı öz məzmununa görə tək deyildir. Şüeyb peyğəmbərin də əhvalatı bu cəhətdən ona çox oxşardır. Şüeyb peyğəmbərin qövmünə bəla nazil olaraq onları həlak edir. Qurani Kərim bu mənzərini təsvir edərək belə buyurur: "Yerin titrəyişi onları əhatə etdi və onlar öz evlərində ölü kimi tərpənməz oldular. Şüeybi yalançı hesab edənlər (elə məhv oldular ki) elə bil heç orada yaşamırdılar. Şüeybi yalançı hesab edənlər ziyankarlardan oldular. Öz qövmündən üz çevirərək belə dedi: "Ey mənim qövmüm, mən artıq sizə rəbbimin müraciətlərini çatdırdım və sizə nəsihət etdim. (Bu öyüd nəsihətdən sonra) kafir qövmə necə təəssüf edim?!" (Əl Əraf surəsi, 91, 92 və 93-cü ayələr)

Şüeybdə qövmünə onlar həlak olandan sonra müraciət edir. Əgər həlak olanlarla əlaqə saxlamaq mümkün olmasaydı onda Saleh və Şüeyb peyğəmbər necə onlara xitab edirdilər?! Məgər mümkündürmü ki, bu xitab təəssüf üzündən baş versin?! Qətiyyən, yox! Bu növdən olan xitab, ayənin zahiri mənasına və Quranın təfsir üslubuna ziddir. Bundan əlavə ruhların xitab olunması əqli cəhətdən qeyri-mümkün hesab olunmur.

3. Peyğəmbərin özündən əvvəlki elçilərlə danışmağa əmr olunması:

Allah təala Qurani Kərimdə peyğəmbərə belə buyurur: "Səndən əvvəl göndərdiyimiz elçilərdən soruş. Məgər ibadət üçün Rəhman olan Allahdan başqa məbudlar qərar vermişikmi?" (Əl Zuxruf surəsi, 45-ci ayə) Ayədən görünür ki, Allah təala peyğəmbəri özündən əvvəlki peyğəmbərdən soruşmağa əmr edir. Allahın bu əmrini həmin dinlərin alimlərinə müraciət olunması kimi qəbul etmək düzgün olmazdı. Çünki bu cür təfsir və açıqlama ayənin zahirinə ziddir.

4. Çoxsaylı Quran ayələri və əqli dəlillər sübut edir ki, ölüm insanın fani olmağı demək deyildir, əksinə o, insanın bir aləmdən digər aləmə köçməsi deməkdir. Lakin materialist düşüncəni əsas tutan alimlər hesab edirlər ki, qeyri-maddi bir aləm mövcud deyil və ölüm də insan həyatının sonu deməkdir. Bununla da insanın yenidən həyata qayıdıb öz layiq olduğu mükafat və yaxud da cəzaya yetişəcəyini inkar edirlər. Onların nəzərinə görə insan tam yox olub aradan gedəndən sonra artıq onun ikinci dəfə dirilməsi üçün heç bir əsas qalmayacaqdır.

Allah təala vəhy nazil edərək həmin bu nəzəriyyəni tənqid edib rədd etmişdir: "Onlar dedilər: "Torpaqda yox olub aradan gedəndən sonra yenidən diriləcəyikmi?..." Cavablarında isə belə buyurur: "De (Ey peyğəmbər) sizlərə məmur olmuş mələk ruhlarınızı alır, sonra isə öz Rəbbinizə doğru döndəriləcəksiniz." (Əl Səcdə surəsi, 10 və 11-ci ayələr) Ayədən belə nəticə çıxarmaq olar ki, ölüm torpaqda yox olub getmək demək deyil. Çünki insanın şəxsiyyəti onun maddi bədəni ilə deyildir, əksinə insanın şəxsiyyəti ölüm mələyinin aldığı ruhladır. Və həmin bu ruh da Allah yanında toxunulmazdır. Belə ki, Qurani Kərimdə ruhların alınması (təvəffi) feli ilə ifadə olunmuşdur. Bu da ruhların alınması və yaxud da götürülməsi deməkdir.

Qurani Kərim başqa bir ayədə (təvəffi) felinin mənasını açıqlayaraq belə buyurur: "Allah ölüm zamanı və yuxuda olanda ruhları alır. Sonra isə ölmüş ruhları saxlayır və digərlərini (ölməmiş ruhları) isə müəyyən olunmuş vaxta qədər buraxır. Bu işdə təfəkkür edənlər üçün nişanələr var." (Əl Zumər surəsi, 42-ci ayə) Ayədə göstərildiyi kimi Allah təala ruhları iki mərhələdə alır: ölüm zamanı və yuxuda. Dünya həyatına qayıtmamaq hökmü verilmiş ruhları saxlayıb və həmçinin ölüm hökmü verilməmiş ruhları isə müəyyən olunmuş vaxta qədər

sərbəst buraxır. Bütün bunlar göstərir ki, ölüm insan həyatının sonu deyil, əksinə ruh cismi tərk edib başqa bir aləmə köçür.

5. İmam Hüseyn (ə) Aşura günü öz sadiq səhabələrinə ölümün həqiqətini açıqlayaraq belə müraciət edir: "Səbr edin, ey əhli kəramət övladları. Ölüm sizləri səfalət və çətinlikdən qurtarıb geniş bağlar və daimi nemətlərə aparan bir körpüdən başqa bir şey deyildir. Sizlərdən hansı biriniz zindandan qurtarıb qəsrə daxil olmağı xoşlamır?! Sizin düşmənləriniz isə qəsrdən çıxıb zindana və əzaba köçəcəklər. Atamın mənə Allah rəsulundan söylədiyi hədisdə belə deyilir ki, həqiqətən, dünya möminin zindanı və kafirin cənnətidir. Ölüm möminləri cənnətə, kafirləri isə cəhənnəmə aparan körpüdür. Mən yalan danışmayıb və yalan danışmaqda da ittiham olunmamışam."[25]

Sizlərə təqdim etdiyimiz bu ayələrdə peyğəmbər, siddiqlər və şəhidlərin Bərzəxdə diri olmalarını sübut edən dəlillər kifayət qədərdir. Bu sadaladıqlarımızdan başqa bir qrup insanların da diri olmağına sübut və dəlillər vardır. Lakin bunların hamısını burada qeyd etməyə heç bir ehtiyac olmadığı üçün bu miqdarla kifayətlənirik. Əhli sünnət alimləri də bu həqiqəti dəstəkləmişlər. Budur, onlardan biri Əl Əşəri belə deyir: "Peyğəmbərlərin diri olması bizim inanclarımızdandır." Bu mövzuda "Həyat əl ənbiya", yəni "Peyğəmbərlərin həyatı" adlı kitabını da yazmışdır.[26]

Birinci nöqtənin isbatı üçün təqdim olunmuş dəlillərlə kifayətlənib, sonrakı mövzularda da peyğəmbərdən bu mətləbə dəlalət edən hədisləri xatırlayacağıq.

2. Dünya həyatı ilə Bərzəx arasındakı əlaqə

Bu dəlillər bizə imkan verir ki, tam yəqinliklə ruhlarla əlaqənin mümkünlüyünə inanaq. O ki,qaldı bu barədə olan hədislər və rəvayətlərə, burada yalnız bəzilərini nəql etməklə kifayətlənirik:

1. Rəvayət olunmuşdur ki, əziz İslam peyğəmbəri Bədr çölündə müharibədə öldürülmüş müşriklərin başları üstə dayanaraq onları bir-bir səsləyib belə müraciət etmişdir: "Ey filan ibn filan..., rəbbimizin bizə verdiyi vədəsinin haqq olduğunu gördük! Siz də öz rəbbinizin sizə verdiyi vədənin haqq olduğunu gördünüzmü?!" Ömər peyğəmbərə deyir: "Ey Allahın rəsulu, ruhları olmayan cəsədləri danışdırmağınız nə deməkdir? Allahın rəsulu belə buyurur: "And

[25] Mustafa əl Musəvi, "Bəlağət əl Hüseyn" ,səh.47
[26] Əl Subki, "Təbəqat əl şafiiyyə", 3-cü cild

olsun Muhəmmədin canı əlində olan varlığa, siz, onlara dediyim sözləri onlardan daha yaxşı eşitmirsiz...!”[27]

2. Həmçinin rəvayət olunmuşdur ki, İmam Əli (ə), Cəməl döyüşü qurtarandan sonra düşmən tərəfdən öldürülmüş şəxslərin yanından keçərkən gözü Bəsrə şəhərinin qazisi Kəb ibn Şura sataşır və ətrafdakılara əmr edir ki, onu otuzdursunlar. İki nəfər onu oturmuş halda saxladılar, halbuki o, ölmüş idi. İmam Əli (ə) ona üz tutaraq belə buyurdu: “Ey Kəb ibn Şur, rəbbimin mənə verdiyi vədənin haqq olduğunu gördüm! Sən də rəbbinin sənə verdiyi vədənin haqq olduğunu gördünmü?!” Sonra əmr etdi ki, onu uzatsınlar. Döyüş meydanında bir az gəzişdikdən sonra Təlhə ibn Übeydullahın cəsədini gördü. Ətrafdakılara onu otuzdurmağı əmr etdi. Ona üz tutaraq belə buyurdu: “Ey Təlhə ibn Übeydullah, rəbbimin mənə verdiyi vədənin haqq olduğunu gördüm! Sən də rəbbinin sənə verdiyi vədənin haqq olduğunu gördünmü?!” Sonra onu uzatmağı əmr etdi. Bir nəfər təəccüblə ona dedi: “Ey möminlərin əmiri, bu iki ölü ilə danışmağının mənası nədir, halbuki onlar səni duymurlar?!” İmam (ə) ona belə cavab verdi: “Ey kişi, and olsun Allaha ki, dediklərimi eşitdilər, necə ki, Bədrdə öldürülmüş müşriklər peyğəmbərin sözlərini eşitmişlər.”[28]

Bunlardan əlavə məzhəbin müxtəlifliyinə baxmayaraq hər bir müsəlman gündəlik namazlarında peyğəmərə salam göndərərk belə deyir: “Allahın salamı, rəhməti və bərəkəti Sənə olsun, ey peyğəmbər!” Əgər peyğəmbər həyatını dəyişməsi ilə onunla əlaqəmiz kəsilmişdirsə, onda ona müraciət edərək salam verməyimizin nə mənası vardır?! Namazda göndərilən salam peyğəmbərin müqəddəs ruhu ilə əlaqə yaradılmasının mümkünlüyünü sübuta yetirir.

Əhli sünnətin əsas mənbələrində bu mətləbə dəlalət edən bir çox hədislər vardır. Bu hədislərin birində peyğəmbər Aişəyə buyurur ki, Bəqi məqbərəsini ziyarət edərkən belə desin: “Salam olsun müsəlman və möminlərdən ibarət diyar əhlinə. Allah bizdən əvvəlkilərə və sonra gələnlərə rəhmət eləsin.”

Başqa bir hədisdə isə belə gəlmişdir: “Salam olsun mömin tayfaya. Həqiqətən də biz və sizlər bir gün bir-birimizlə görüşünlərdənik. Biz, inşallah, sizlərə qovuşacağıq. Allah Bəqi əhlini əfv etsin.

[27] Əl Buxari, “Səhih”, “Bədr döyüşü” babı., İbn Hişam, “Sirət əl nəbi”
[28] Şeyx Mufid, “Hərb əl Cəməl”., Seyid Abdullah Şubbər, “Haqq əl yəqin”

Bu və buna oxşar hədislər çox az müxtəlifləyinə baxmayaraq Əhli sünnət alimlərinin hədis kitablarında gəlmişdir. İndi isə peyğəmbərin ona salam göndərilməsi barəsində bir neçə hədisi xatırlayırıq:[29]

"Allahın yer üzünü dolaşan mələkləri mənə öz ümmətimin salamını yetirər."

"Mənə salam göndərən hər bir kəsə cavab olaraq Allah təala ruhumu bədənimə qaytarar ki, onun salamını verim."

"Hər kim qəbrim üstə mənə salavat göndərsə onu eşidər və hər kim uzaqdan salavat göndərsə mənə çatdırılar."

"Mənə salavat göndərin. Çünki siz harda olursunuz olun salavatınız mənə yetişir."

"Hər kim məni vəfatımdan sonra ziyarət edə və salam göndərə əvəzində on dəfə ona salam göndərərəm. Həmin adamı salam deyə-deyə on mələk ziyarət edər. Və hər kim mənə evdə salam göndərsə, Allah mənim ruhumu ona salam vermək üçün qaytarar."

3. Peyğəmbərin duası ilə təvəssül etmək məsələsində səhabələrin adət-ənənəsi

Əziz İslam peyğəmbəri Allah təalaya qovuşduqdan sonrakı dövrdə sələfin həyat tərzinə nəzər salsaq, görərik ki, onlar peyğəmbərin vəfatından əvvəl edikləri kimi sonralar da onun duası olə təvəssül edər və bu məsələdə heç bir fərq görməzdilər. Tarix kitablarını vərəqləyən hər bir kəs sələfin peyğəmbər məscidində onun məzarı kənarında etdikləri təvəssülü asanlıqla müşahidə edə bilər. Burada isə bu tarixi şahidlərdən bəzilərini nümunə olaraq xatırlamaq istərdik.

Səhabə dövründə bu fenomenin bu cür kütləvi şəkildə yayılması onu göstərir ki, təvəssül heç də qeyri-adi bir məsələ deyildi, əksinə, sələfin həyat tərzində özünəməxsus bir yerə malik idi.

Əgər baş verən bəzi hadislərin həqiqətə uyğun gəlməməsini fərz etsək, yəni o dövrdə bəzi üzdəniraq yalan hədis alverçilərinin bu məsələyə dəxalət etməsi yəqinləşsə belə, yenə də təvəssülün düzgün olmasını sübuta yetirmək olar. Çünki təvəssül fenomeni İslam şəriətinə zidd olsaydı, lakin hədis alverçiləri bu çoxluqda olan tam cəsarətlə düzəltməzdilər. Hər nə olursa olsun, bütün İslam ümmətinin qarşısında, xüsusilə də, səhabələrin gözü önündə haram br işin yayılması qəbulolunmazdır. Yalan hədis uydurmaları bu işə vadar edən əsas amil

[29] Müslüm, "Səhih", 3-cü cild, "Məqbərəyə daxil olan zaman deyilən sözlər" babı və digər əhli sünnət hədis kitabları

fenomenin ümumi kütlə tərəfindən qəbul olunmasıdır. Əgər təvəssül qanuni olmasaydı yalan hədis alverçiləri bu işə əl atmazdılar.

Deməli, bu çoxluqda olan hədislər hər iki təqdirdə təvəssülün qanuni olmasına dəlalət edir. Əgər bu çoxsaylı təzahürlər doğrudursa, onda təvəssülüm düzgün və qanuni olmasına və əgər yalandırsa, deməli, sələfin içində tamamilə mövcud olan və yayılan, baxmayaraq ki, bəzən hədis alverçilərinin hədəf mərkəzinə çevrilərək istifadə olunan, qanuni bir təzahürdən xəbər verir. Burada isə əsasən əhli sünnət alimlərinin öz kitablarında yazdıqları bəzi nümunələrə işsarə etmək yerinə düşərdi:

Bax, bu da, Əbu Bəkr: qəflətən öz atı ilə peyda olaraq atından düşüb məscidə daxil oldu. O, heç kimlə danışmayaraq Aişənin otağına daxil olub peyğəmbərə tərəf getdi. Peyğəmbər bir örtüyə bükülərək uzadılmış halda idi. Üzündəki örtüyü götürüb özünü onun üstünə saldı. Onu öpüb sonra ağladı. Belə dedi: "Atam sənə qurban, ey Allahın elçisi! Allah təala iki ölümü sənə göstərməsin. Sənə yazılmış birinci ölümü isə artıq vəfat etdin."[30]

Əgər iki həyat, dünya və Bərzəx həyatl arasında əlaqə olmasaydı, onda bu səhabənin sözünün mənası olmazdı və əgər bu səhabənin dediklərini peyğəmbəə eşitdirmək niyyəti olmasaydı, nə üçün peyğəmbərə xitab edirdi?!

Qeyd: Hədisdə adı gedən "iki ölüm" barəsindəki rəylər müxtəlifdir. Bu rəylərdən biri bundan ibarətdir ki, insan ölməklə dünya həyatından bərzəx aləminə köçür. Burada isə maddi bədəni tərk edən insanın ruhu dirilir və hər şeyin həqiqqətini dərk edir. Sonra isə Qiyamət günü bərzəx aləmindəki bütün ruhlar yenidən ölüm badəsini dadandan sonra hesab-kitab üçün məhşərə gəlməkdən ötrü yenidən dirilirlər. Hədisi qeyd etməyimizin əsas məqsədi Əbu Bəkrin peyğəmbərlə danışmasıdır. Hər bir sıravi müsəlman kimi bu səhabənin də inancına görə maddi bədəni tərk etmək fəna olmaq demək deyildir, əksinə, sadəcə olaraq ruhun bir aləmdən başqa bir aləmə köşməsi deməkdir.

Əbülqasim Əbdürrəhman əl Süheyli "Əl rovd əl ənif" kitabında belə rəvayət etmişdir: "Əbu Bəkr Aişənin evində bir örtüyə bükülmüş halda uzadılan peyğəmbərin yanına gəlir. Ona yaxınlaşaraq üzündəki örtüyü götürür sonra isə onu öpüb belə deyir: "Anam, atan sənə qurban! Sənə yazılmış birinci ölümə gəlincə isə artıq onu dadın. Daha bundan sonra sənə ölüm yoxdur!

Əl Hələbi özünün sirə kitabında belə rəvayət etmişdir: "Əbu bəkr gözlərindən yaş axa-axa peyğəmbərin cənazəsinə doğru gəlib onu öpür. Sonra isə belə deyir: "Anam, atam sənə qurban, sən diri və ölü ikən paksan!"

[30] Əl Buxari, "Səhih", "Kitab əl cənaiz" babı

Məkkə şəhərinin qazisi Zeyni Dəhlan öz sirə kitabında Əbu Bəkrin belə dediyini yazmışdır: “Sən diri və ölü ikən paksan. Vəfatınla səndən əvvəlki peyğəmbərlərin vəfatı ilə kəsilməyən, vəhy kəsildi. Sən vəsfedilməz dərəcədə əzəmətli və göz yaşlarından daha üstünsən. Əgər ölümün ixtiyarı əlimizdə olsaydı sənin əvəzində neçə-neçə insan fəda edərdik. Ey Muhəmməd, bizi rəbbinin dərgahında xatırla və bizi unutma!”

Möminlərin əmiri, İmam Əli (ə) peyğəmbərə qusl verərkən belə deyirdi: “Atam, anam sənə qurban, ey Allahın rəsulu! Vəfatınla, səndən əvvəlki peyğəmbərlərin vəfatı ilə kəsilməyən, peyğəmbərlik və səma xəbərləri kəsildi... Anam, atam sənə qurban, bizi rəbbinin dərgahında xatırla və bizi unutma!”

Əhli sünnət alimi Əl Subki qəbr ziyarətinin düzgün olmağını Qurani Kərim, peyğəmbərin sünnəti və qiyasla sübut edərək bütün müsəlmanların bu mətləbin qanuniliyinə həmrəy olduğunu bəyan etmişdir.

Quran ayələrinə gəlincə isə, Allah təala belə buyurur: “... Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhmli görərlər” (Əl Nisa surəsi, 64-cü ayə). Bu ayə açıq-aşkar günahkarların peyğəmbərin yanına gəlib bağışlanmaq istəmələrinə həvəsləndirir. Peyğəmbərin də onlar üçün bağışlanmaq diləməsi onun vəfat etməsi ilə qırılmayan bir rütbədir. Artıq peyğəmbər bütün möminlər üçün bağışlanmaq diləmişdir. Çünki Qurani Kərim belə buyurur: “... öz günahın, mömin kişilər və möminə qadınlar üçün bağışlanmaq dilə...” (Muhəmməd surəsi, 19-cu ayə). Qeyd etmək yerinə düşərdi ki, bundan yuxarıdakı ayədə peyğəmbərin əfv diləməsi günahkar bəndələrin özləri üçün əfv diləməsindən sonraya düşməsi zəruriliyinə işarə etmir. Bizim inancımıza görə peyğəmbər dünya həyatını tərk etdikdən sonra belə günahkar bəndələr üçün bağışlanmaq diləyir. Çünki dəlillər onun diri olmağına və bəndələrin əməlləri ona təqdim edilən zaman ümməti üçün əfv diləməsini sübut edir. Həmçinin, peyğəmbərin, bütün aləmlərə rəhmət rəmzi olduğu bir halda, tövbə edərək onun yanına gələni tərk etməsi ağılasığan deyildir.

Qurani Kərim təfsir və izah edən alimlər sözü gedən ayənin peyğəmbərin hər iki halına aid olmasını anlamış və onun qəbrinə gələn günahkar bəndənin bu ayəni oxuması və Allahdan tövbə diləməsini müstəhəb bilmişlər. Məzhəblərinin müxtəlifliyinə baxmayaraq bütün hədis alimlərinin öz kitablarında qeyd etdiyi çöl ərəbinin peyğəmbəri ziyarət etməsi əhvalatı olduqca məşhur və yayılmışdır. Hətta bütün məzhəblərdən olan fəqihlər bu əhvalatı öz fiqhi kitablarında həccin əməlləri babında xatırlamışlar. Bu əhvalatı İbn Əsakir, ibn əl Cövzi və digərləri müxtəlif sənədlərə Məhəmməd ibn Hərb əl Hilalidən nəql etmişlər. O, belə deyir: “Mədinəyə daxil olub peyğəmbərin qəbri üstə gəldim. Onu ziyarət edib bərabərində oturdum.

Bu zaman bir çöl ərəbi gəlib onu ziyarət etdi və sonra belə dedi: “Ey səma elçilərinin ən xeyirlisi, Allah təala sənə doğrucul bir kitab nazil etmiş və orada belə buyurmuşdur:”... Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər.” Mən sənin yanına rəbbinə günahlarımdan tövbə edərək, səni havadar və vasitəçi bilərək gəlmişəm. Sonra ağlayaraq bu misraları dedi:

Ey məzarların ən əzəmətlisində olan xeyirli insan	Ətirlənmiş məzarlar ətrindən sənin
Canım olsun fəda o məzara ki, sakinisən sən	Onda vardır iffət və səxavət və kəramət[31]

Sonra tövbə edib geri döndü. Ravi sözünə davam edərək deyir ki, mən bir qədər uzandım və yuxuladım. Röyada peyğəmbəri gördüm. O, belə buyurdu: “Həmin kişinin ardınca get və ona müjdə ver və de ki, Allah təala mənim vasitəmlə onun günahlarını əfv edib.” Mən yuxudan oyanıb onun ardınca getdim, lakin onu tapa bilmədim.

Eyni məzmunda olan bu hədisi Əhli sünnət alimi Hafiz Əbu Abdullah Məhəmməd ibn Musa ibn əl Numani özünün “Misbah əl zalam” kitabında Əbu Səid əl Səmanidən, o isə Əli ibn Əbu Talibdən (ə) nəql etmişdir. O həzrət belə buyurmuşdur: “Peyğəmbəri dəfn edəndən üç gün sonra bir çöl ərəbi qəbrin ziyarətinə gəldi. Özünü peyğəmbərin qəbri üstünə atıb torpağı başına tökdü və belə dedi: “Ey Allahın Rəsulu, sən dedin biz də sənin sözünü eşitdik (yəni qəbul etdik). Sən Allahdan eşidib dərk etdin, lakin biz dərk etmədik. Sənə bu ayə nazil oldu: “... Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər.” Mən özümə zülm etdim və sənin yanına gəldim ki, mənim üçün əfv diləyəsən. Qəbirdən belə nida gəldi: “Sən artıq əfv olunmusan.”

Bu hədis bir çox ravilər tərəfindən nəql olunmuşdur. Burada isə yalnız iki sənədlə nəql olunmuş hədisi qeyd edib kifayətlənirik. Hədisdə haqqında danışılan çöl ərəbi öz sağlam

[31] يا خير من دفنت با لقا ع أعظمه فطا ب من طيبهن القا ع و ا لا كم
نفسي الفد اء لقبر أنت سا كنه فيه العفا ف و فيه الجودوالكرم

vicdanı ilə dərk etmişdir ki, günahkar müsəlmanları tövbə edib peyğəmbərin yanına gəlmələrini tələb edən bu Quran ayəsi yalnız peyğəmbərin dünya həyatına məxsus olmayıb, əksinə, Bərzəx həyatına da aiddir.

Əhli Sünnət alimlərindən biri Əl Qazi Əbulfəzl İyad əl Yəhsubi özünün "Əl şifa bi tərifi hüquqi əl Mustafa" kitabında gözəl bir sənədlə İbn Həmiddən nəql edir ki, bir gün Əbu Cəfər (Əl Mənsur əl Dəvaniqi, ikinci Abbasi xəlifəsi) peyğəmbər məscidində Maliklə (İbn Ənəs) mübahisə edirdi. Malik ona belə dedi: "Ey möminlərin ağası, bu məsciddə səsini qaldırma. Çünki Allah təala bir qrup insanı ədəbləndirmək üçün bu ayəni nazil etmişdir: "...səslərinizi peyğəmbər səsindən yüksəyə qaldırmayın..." və digər qrup insanı isə tərifləmişdir: "Peyğəmbərin yanında səslərini (tonunu) alçaldan kəslərin qəlblərini Allah təqva ilə imtahan etmişdir.Onlara böyük savab və əfv vardır." Və başqa bir qrupu isə məzəmmət edərək buyurmuşdur: "Həqiqətən, səni otaqların arxasından səsləyən kəslərin çoxusu dərk etməzlər." Peyğəmbərin vəfat edəndən sonrakı hörməti diri olan haldakı kimidir. Abbasi xəlifəsi Əl Mənsur bu sözləri qəbul edib belə dedi: "Ey Malik, üzümü qibləyə tutub dua edim, ya peyğəmbərə? Malik dedi: "Üzünü nə üçün ondan döndərəsən?! Axı, o, Qiyamət günü sənin və atan Adəmin Allaha vasitəsidir! Əksinə, üzünü ona doğru tut, onu özünə havadar və vasitəçi bil, ta ki, Allah sənə havadar olsun. Çünki Allah təala buyurub: "...Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər."

Malikin bu sözlərinə bir diqqət et! Gör, peyğəmbərin ziyarəti və onun Allah dərgahında vasitə olması barəsində nə gözəl demişdir!

Digər Əhli sünnət alimi Əbu Abdullah Məhəmməd ibn Abdullah ibn əl Samiri əl Hənbəli "Əl müstovəb" kitabında peyğəmbərin ziyarəti babında belə demişdir: "...sonra qəbrin divarına yaxınlaş və onun bir kənarında dayan. Qəbri özünlə üzbəüz, qibləni arxada, minbəri isə sol tərəfində qərar ver..." Bu alim sözünə davam edərək peyğəmbərə salam və duanın keyfiyyətini qeyd etmişdir. Və həmçinin belə demişdir: "ey Allahım, Sən öz kitabında belə buyurmusan: "...Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər." Mən tövbə edərək peyğəmbərinin yanına gəlmişəm. Səndən yalvararaq xahiş edirəm ki, məni bağışlayasan, necə ki, peyğəmbər diri ikən onun yanına gələni bağışlamısan. Ey Allahım, mən peyğəmbərini vasitə qərar verib sənə üz tuturam..." Çox uzun bir dua xatırlatdığı üçün bu miqdarla kifayətlənirik.

Bunlar sizə təqdim etdiyimiz bir sıra nümunələrdir. Artıq məlum oldu ki, peyğəmbərin dünya və Bərzəx həyatı arasında heç bir fərq yoxdur. Tarix və hədis alimləri bu mətləb barəsində çox sayda əhvalatlar və hədislər qeyd etmişlər. Bütün bunlar göstərir ki, peyğəmbərin vəfat etdikdən sonra Allah dərgahında vasitə qərar verilməsi yayılmış bir fenomen idi. Bu olduqca böyük kütlə təşkil edən hadisəni dərk edib ona qarşı çıxmağa bizim haqqımız yoxdur. Çünki Allah təala buruyub: "Hər kim həqqiqət ona bəyan olandan sonra peyğəmbərlə düşmənçilik etsə və möminlərin yolundan başqa bir yolu izləsə, biz onu izlədiyi yola döndərərik və cəhənnəmə daxil edərik. Nə pis yeri vardır onun!" (Əl Nisa surəsi, 115-ci ayə)

Əhli sünnət alimi Əl Səmhudi "Vəfa əl vəfa li əxbar dar əl Mustafa" kitabında peyğəmbərdən kömək diləyib və yaxud da öz hacətini istəyib feyzə yetişən şəxslərin barəsində yazmışdır. Bu əhvalatları o, Məhəmməd ibn Musa əl Nümanın "Mibah əl zalam fi əl müstəğisin bi xayr əl ənam" kitabından nəql etmişdir.

Cavab verilməsi zəruri olan şübhələr

Artıq peyğəmbərin duası ilə təvəssül etmənin dəlilləri ilə tanış oldunuz və gördünüz ki, Qurani Kərim, peyğəmbər sünnəti və bütün müsəlmanların adət-ənənəsi bu fenomenin qanuni olmasını təsdiqləyir. Lakin bu mətləb ətrafında bəzi şübhələri əldə əsas tutanlar belə güman edirlər ki, bu yolun üzərindəki tikanlar təvəssül yolunu gedənlərin addımlarını ağırlaşdırır. İndi isə burada bəzi şübhələri xatırlayıb onlara ağlasığan və düzgün cavab verək:

Birinci Şübhə: Bərzəx aləmi ruhlarla əlaqə saxlamağa mane ola bilərmi?

Şübhə: Bərzəx həyatı elə bir həyatdır ki, onun həqiqətini Allahdan başqa bir kimsə bilə bilməz. Bərzəx tamamilə müstəqil bir aləm olaraq onun varlığına inanır, lakin mahiyyətinin nədən ibarət olduğunu isə bilmirik. Dirilər və ölülər arasında əlaqəyə mane olan bir pərdədir. Allah təala belə buyurur: "Onların axasındakı Bərzəx Qiyamət gününə qədərdir" (Əl Muminun surəsi, 100-cü ayə). Bərzəx isə lüğətdə manea deməkdir.

Yeri gəlmişkən, birinci nöqtəyə müqəddimə olaraq onu demək lazımdır ki, istər dünya həyatı, istərsə də Bərzəx həyatı olsun, bunların həqiqət və mahiyyətini bilmək yalnız Yaradana məxsusdur. Bizim bildiyimiz, başqa sözlə desək, bilmək iqtidarında olduğumuz şey yalnız bu hər iki dünyanın xüsusiyyətləri və təzahürləridir. Dünya həyatı bizə öz zahiri təzahürləri ilə məlum olduğu kimi (insan hər nə qədər elm və texnikada irəlililəyərsə bir o qədər bu maddi dünyanın sirləri ona məlum olur) Bərzəx həyatı da bizə yalnız öz təzahürləri ilə məlumdur. Qurani Kərim bu barədə bəzi sirlər və təzahürləri qeyd etmişdir. Şəhidlər,

saleh insanlar Bərzəx aləmində qida qəbul edir, Allahın verdiyi nemətlərə sevinir, onların sıralarına hələ qatılmayan şəhidlərə müjdə verir, qorxmamalarını və qəmlənməmələrini bildirir.

Bərzəx həyatı yalnız möminlərə aid olmayıb kafirlər, o cümlədən, Firon və onun ətrafına toplaşan əyanlar da aiddir. Allah təala belə buyurur: "... şiddətli əzab Firon əhlini haqladı. Səhər-axşam odu onlara göstərilirdi. Qiyamət günü bərpa olan kimi-"onları ən şiddətli əzaba daxil edin (deyiləcək)" (Ğafir surəsi, 45 və 46-cı ayələr)

Bərzəx barəsində bu qədər bilməyimiz bizə imkan verir ki, orada onlardan əql, şüur və dərk etməyə qadir olduqlarına hökm edək. Buna görə də, vasitə qərar verilən şəxsin şüurlu, aqil və dərrakəli olması kifayətdir.

İkinci nöqtəyə müqəddimə kimi onu demək lazımdır ki, öz məzhəblərini, nəyin bahasına olursa olsun, dəsdəkləyənlər Bərzəx sözünü maneə və iki dünya arasındakı əlaqənin kəsilməsi kimi təsfir etmişlər. Bərzəxin əsl mənası isə vəfat etmiş insanların dünya həyatına qayıtmasına "mane olan" deməkdir. Buna şahid olaraq Qurani Kərim belə buyurur: "Onlardan (kafirlər və müşriklər) birini ölüm haqlayan kimi deyər: "Mənim rəbbim, məni qaytar ki, tərk etdiyim saleh əməlləri yerinə yetirim." (ona belə deyilər): "Qətiyyən yox! Bu söz yalnız dildədir... (yəni əgər qaytarılsa belə yene də öz əvvəlki əməllərini edəcək)" (Əl Muminun surəsi, 99 və 100-cü ayələr)

"Qətiyyən yox" sözü onların dünyaya qayıtmaq arzularına qarşı verilən cavabdır. Bu cavabın ardı ilə belə buyurur: "Onların arxasındakı Bərzəx Qiyamət gününə qədərdir" (Əl Muminun surəsi, 100-cü ayə). Yəni həmin Bərzəx qiyamət gününə qədər onların qayıtmasının qarşısını alacaq.

Bu və bu kimi məsələlərdə əvvəlcədən hər hansı bir mövqe tutmaq düzgün nəticəyə yetişməyin qarşısını alır. Deməli, peyğəmbərin duası ilə təvəssül etməyin düzgünlüyünü inkar edən şəxslər, əvvəlcədən, Bərzəxin mənasını iki dünya arasındakı əlaqənin mümkün olmaması kimi qəbul etmiş və bu məsələdə öz inanclarını həmin qəbul olunmuş puç əqidə üzərində qurmuşlar. Bu əqidə sahibləri bərzəxi hər hansı bir səsin və görmənin qarşısını alan poladdan düzəldilmiş bir maneə kimi təsəvvür edirlər. Məlum oldu ki, bu cür əqidənin heç bir əsası və dəlili yoxdur. Qurani Kərim ayələrdən birində iki suyun bir-birinə qarışmamasını belə təsvir edir: "İki müxtəlif (biri şirin, digəri isə şor) və təmas nöqtəsi olan dəryanı biri-birinin yanında qərar verdi. Onların arasında bir Bərzəx vardır ki, (suların) bir-birinə qarışmasının qarşısını alır"(Əl Rəhman surəsi, 19 və 20-ci ayələr). Lakin alimlər bu iki dənizin arasında heç bir maddi səddin olmasını aşkar etməmişlər.

İkinci şübhə: Ölüləri eşitdirməyin mümkün olmaması

Allah təala buyurur: “Həqiqətən, sən ölülərə (öz səsini) eşitdirə bilməzsən...” (Əl Rum surəsi, 52-ci ayə) və (Əl Nəml surəsi, 80-cı ayə). Lakin “fə” hərfi olmamaq şərti ilə.

Başqa bir ayədə belə buyurur: “Sən qəbrdə olanlara (öz sözlərini) eşitdirə bilməzsən” (Fatir surəsi, 22-ci ayə). Peyğəmbər dünyasını dəyişəndən sonra ölülərdən biri hesab olunur. Buna görə də dünya əhlindən bir kəsin səsini eşidə bilməz. Lakin buna baxmayaraq, onların bədəni çürüməz, çünki Allah təala onların bədənlərini torpağa haram etmişdir. Beləcə onlar, ruhları olmayan cəsədlər kimidirlər.

Bu şübhəni iki hissəyə bölmək mümkündür:

1. Peyğəmbər dünyasını dəyişəndən sonra ölülərdən biri hesab olunur

2. Yuxarıda tilavət olunan ayələr qəbrdə olan ruhsuz cəsədlərə aiddir

Birinci hissəyə cavab olaraq onu demək lazımdır ki, bu etiqad birbaşa olaraq Bərzəx həyatını inkar edir, halbuki Qurani Kərim bəzi insanların ölü adlanmasını tənqid atəşinə tutur: “(Ey peyğəmbər) Allah yolunda qətlə yetirilmişləri ölü güman etmə, əksinə onlar diri və öz rəblərinin yanında qidalanırlar” (Ali İmran surəsi, 129-cu ayə).

Düzdür, Qurani Kərim peyğəmbərə müraciət edərək belə buyurur: “Həqiqətən, sən və onlar öləcəksiniz” (Əl Zumər surəsi, 30-cu ayə). Lakin bu ayə tamamilə fani olmağa işarə etməyib, əksinə, ruhun bədəndən ayrılıb başqa bir aləmə köçməsinə işarə edir.

İkinci hissə barəsində isə onu qeyd etmək lazımdır ki, bu ayələr qəbrdə olan ruhsuz cəsədlərə aiddir. Doğrudan da, bu cəsədlər bir şey dərk etmir və bir şey eşitmir. Lakin əlaqə bu cəsədlərə deyil, əksinə əbədi diri olan ruhlarla baş verir. Cəsəd hər nə qədər parçalanıb aradan getsə belə ruh daimən qalır. Elə həmin ruhlardır ki, onlara salam və salavat göndərilir, onlar eşidir və cavab verirlər.

Burada belə bir sual meydana gəlir. Onda nə üçün biz məqbərələrə gedir və qəbr sahibini ziyarət edirik. Cavab olaraq onu demək lazımdır ki, qəbrin ziyarət olunması həmin qəbrdə yatan şəxsə doğru diqqəti artırır və onun sifətləri və xüsusiyyətlərini xatırlamaqla daha yardımçı olur. Halbuki ruhlarla əlaqə saxlamaq, onlara salam göndərmək hətta uzaq bir məsafədən də mümkündür. Belə ki, peyğəmbərə salavat və salam göndərilməsi haqqında gələn hədislər bunu daha da təsdiq edir.

Əhli sünnət alimi və müfəssiri Şəmsəddin ibn Qəyyimin yuxarıda qeyd etdiyimiz iki ayənin təfsirində yazdığı mətnin tərcüməsini sizə təqdim edirik:

“Allahın” Sən qəbrdə olanlara (öz sözlərini) eşitdirə bilməzsən.” (Fatir surəsi, 22-ci ayə) sözünə gəlincə qeyd etmək lazımdır ki, ayənin məzmunu göstərir ki, söhbət qəlbi ölmüş kafirdən gedir. Belə ki, qəbrdə olanlara onların faydalana biləcəyi sözü eşitdirə bilmədiyimiz kimi, qəlbi ölmüş kafirə də onun faydalana biləcəyi sözü eşitdirə bilmərik. Əlbətdə, Allah təala bu ayədə qəbr sahiblərinin tamamilə heç bir şey eşitməmələrini demək istəmir! Axı, bu necə ola bilər?! Bir halda ki, peyğəmbər buyurmuşdur ki, onlar cənazə aparanların ayaq səslərini eşidirlər və həmçinin buyurmuşdur ki, Bədrdə öldürülmüş müşriklər onun sözlərini və müraciətini eşitmişlər. Peyğəmbər ölülərin adi insana verilən salam kimi salamlanmasını qanuni hesab etmiş və buyurmuşdur ki, hər kim öz mömin qardaşına salam göndərərsə cavabını qaytarar.

Sözü gedən ayə məna baxımından Əl Rum surəsinin 52-ci ayəsi kimidir. Qurani Kərim bu ayədə belə buyurur: “Həqiqətən, sən ölülərə (öz səsini) eşitdirə bilməzsən. Karlara da, onlar səndən üz çevirib uzaqlaşdıqları vaxt sözünü eşitdirə bilməzsən.” Karlarla ölülərin eyni söz biçimində gəlməsi hər iki qrupun eşitmə qabiliyyətindən məhrum olmasına işarədir. Kafir qəlbi daş kimi qəsavət bağladığı üçün heç bir səs və nidanı ona eşitdirmək mümkün deyildir. Bu, ölü və kar insanlara olan xitab kimidir. Lakin bu mətləb ruhları (haçansa bədənlə əlaqəsi olduğu üçün) eşitdirməyi inkar etmir. Bu ayə də sözü gedən mətləbdən tamamilə fərqlənir. Allah daha yaxşı bilir!

Həmçinin sözünə əlavə edərək İbn Əbd əl Birdən belə nəql etmişdir ki, peyğəmbər buyurmuşdur: “Əgər bir müsəlman dünya həyatında tanıdığı mömin qardaşının qəbrindən sovuşaraq ona salam versə Allah təala salamın cavabını verməsi üçün həmin möminin ruhunu bədəninə qaytarar.” Bu hədis açıq-aşkar göstərir ki, qəbr sahibi salam verəni tanıyaraq cavabını qaytarır.

Peyğəmbərdən rəvayət olunmuşdur ki, qəbrə qoyulan meyit onu qəbr evinə yola salandan sonra geri dönənlərin ayaq səslərini eşidir.

Əbu Bəkr Abdullah ibn Übeyd ibn əbi əl Dünya “Əl qubur” kitabında Aişədən belə nəql edir: “Allahın rəsulu belə buyurub: “Əgər bir insan öz qardaşının qəbrini ziyarət edib onun yanında əyləşərsə həmin qəbr sahibi onunla durana qədər mənus olub cavabını qaytarar.”

Həmçinin Əbu Hüreyrə peyğəmbərdən belə nəql etmişdir: “Əgər insan tanıdığı bir qardaşının qəbrinin kənarından sovuşaraq ona salam versə, qəbr sahibi onun salamını

qaytarar və onu tanıyar. Əgər tanımadığı bir kəsin qəbrinin kənarından sovuşaraq ona salam versə qəbr sahibi onun salamını qaytarar.”

Həmçinin sələfdən indiyə kimi meyitin tələqin edilməsi təzahürü göstərir ki, əgər ölən adam bu tələqindən faydalanmasaydı onda bu İslam adəti əbəs və yersiz olardı. Sonda onu da qeyd etmək yerinə düşərdi ki, bütün əhli-sünnət alimləri meyitin tələqin olunmasını müstəhəb əməl hesab edirlər.

Üçüncü şübhə: İnsan əməlinin kəsilməsi

Peyğəmbərdən nəql olunan məşhur bir hədisdə belə deyilir: “İnsan öləndən sonra üç əməldən başqa hər bir əməl ondan kəsilər. Bu, davamlı sədəqə, faydası olan elm və onun üçün həmişə dua edən saleh övlad.” Bu hədis öz ümumiliyinə görə hətta peyğəmbərə də aiddir.

Bu şübhənin cavabına müqəddimə olaraq onu demək olar ki, hər hansı bir iddianın isbatını hansı yolla olursa-olsun qarşısına məqsəd qoyan adam hətta dəlaləti belə olmayan dəlillərdən yapışıb var qüvvəsi ilə öz etiqadını müdafiə etməyə çalışacaq. Bu hədisin bizim mətləbə hansı dəxaləti ola bilər?! Bu hədisin ən çox dəlalət etdiyi şey insanın Bərzəx aləminə köçəndən sonra məhz hədisdə qeyd olunan üç şeydən başqa bir əməldən heç br fayda qazanmamağıdır. Onun birbaşa fayda apara biləcəyi yalnız həmin üç əməldir. Amma ölən şəxsin danışa bilməməsi, başqası barəsində tövbə edə bilməməsi və yaxud da cavab verə bilməyəcəyi barəsində heç bir dəxalət yoxdur.

Beləcə, şübhələr aradan gedir və bizim isbat etməyə çalışdığımız mətləb isə toxunulmaz olaraq qalır. Bu da ondan ibarətdir ki, həqiqətən də peyğəmbər ruhları pak bədənlərini tərk edəndən sonra belə diridirlər və Allahın izni ilə onlarla əlaqə saxlamaq da mümkündür.

Göründüyü kimi təvəssülü inkar etməyə çalışanlar bəzən peyğəmbərin həyatını, bəzən isə onunla əlaqənin mümkün olmamasını, bəzən də bu əməlin əbəs və faydasız olduğunu iddia edirlər. Amma onların bu əməli şirk və peyğəmbərə ibadət kimi hesab etmələrinə gəlincə isə biz bu əməldən Allaha pənah aparırıq! Ötən üç şübhəyə gəlincə isə, artıq onların puç və batil olması aşkar oldu. Bu əməlin şirk hesab olunmasına gəlincə isə, axı, bu necə ola bilər ki, eyni bir əməl peyğəmbərin dövründə monoteizm, lakin onun vəfatından sonra isə şirk hesab olunsun?! Bundan əlavə, peyğəmbərə təvəssül edən insan ya onun ya Allah və yaxud da Allaha şərik olmasını iddia etmir. Şübhəsiz, ona təvəssül edən insan peyğəmbəri Allah dərgahında böyük məqama malik olan və duası rədd olunmayan saleh bir bəndə kimi qəbul edir.

Peyğəmbər və saleh insanların özlərinin vasitə qərar verilməsi

Burada təvəssülün başqa bir qismi də var. O da bundan ibarətdir ki, peyğəmbər və saleh insanların özlərinin Allah dərgahında vasitə qərar verilməsidir. Bu qism təvəssülün özündən əvvəlki qismlə fərqi bundan ibarətdir ki, bundan əvvəlki qisimdə təvəssül edən şəxs peyğəmbər və yaxud da saleh insanın duasını vasitə qərar verirdisə, lakin burada isə o, peyğəmbərin və saleh insanın malik olduğu məqamı nəzərə alaraq onların özlərini Allah dərgahında vasitə qərar verir.

Daha bir məqama diqqətinizi cəlb etmək istərdik ki, bu da əvvəlki qisimdə olan təvəssülün mənası ilə əlaqədardır. Peyğəmbərin duasının vasitə qərar verilməsi həmin duanın pak, kəramətli və yüksək əxlaqlara malik olan bir ruha aid olmasına görədir. Buna görə də sadəcə olaraq dua öz-özlüyündə vasitə deyil, əksinə həmin dua Allahın əzizlədiyi, adını ucaldıb dillər əzbəri etdiyi, pak və ilahi bir şəxsiyyətdən qaynaqlandığına görədir. Allah təala peyğəmbəri əzizləməyi bütün müsəlmanlara əmr edərək buyurmuşdur: "... ona (peyğəmbərə) iman gətirib əzizləyənlər, kömək edənlər və onunla nazil olan nura tabe olanlar nicat tapanlardır" (Əl Əraf surəsi, 157-ci ayə).

Əgər duanın qəbul olması peyğəmbərin görkəmli, ideal şəxsiyyəti və Allah dərgahındakı məqamından irəli gəlirsə, onda peyğəmbərin duası ilə təvəssül olunduğu kimi onun özünün vasitə qərar verilməsi daha məqsədə uyğun olar. Əgər kimsə peyğəmbərin duası ilə olan duanı qəbul edib, lakin özünün vasitə verilməsini inkar edirsə, bu bir-birinə zəncir kimi bağlı olan iki halqanı ayırmış kimi olar. Bu fikirdə olanlar öz əqidəsini qorumaqdan ötrü müsəlmanlar arasında parçlanma salmaqdan belə çəkinmirlər.

İndi isə sözü gedən təvəssül qisminin isbat olunması üçün peyğəmbər və onun pak və məsum Əhli beytinin hədislərini qeyd edək:

1. Kor kişinin peyğəmbərə təvəssül etməsi:

Osman ibn Hüneyfdən belə nəql olunur: "Bir kor kişi peyğəmbərin yanına gəlib belə deyir: "Allaha dua et mənə afiyət versin. Peyğəmbər ona belə cavab verir: "Əgər istəyirsənsə ya dua edim, ya da ki, səbr et. Bu, daha xeyirlidir.

Kişi dedi: "Dua et." Peyğəmbər ona əmr etdi ki, kamil dəstəmaz alıb iki rükət namaz qılsın və bu dua ilə Allahdan istəsin: "Ey mənim Allahım, mən Səni, rəhmət peyğəmbəri Muhəmmədə and verib üzümü Sənə tutur və xahiş edirəm. Ey Muhəmməd, mən öz hacətim

üçün sənin vasitənlə öz rəbbbimə üz tuturam ki, hacətim qəbul olsun. Ey mənim Allahım, peyğəmbəri mənim barəmdə iltimasçı və vasitəçi qərar ver.”

İbn Hüneyf sözünə davam edərək belə dedi: “And olsun Allaha, çox çəkmədi ki, o kişi daxil oldu, sanki kor deyilmiş!”

Bu hədislə mətləbimizi sübut etmək üçün hər şeydən əvvəl bu hədisin sənəd, həm də ki, məzmun baxımdan düzgün olmasını sübut etmək lazımdır. Hədisin sənədinə gəlincə bu barədə cahillərdən başqa bir kəs münaqişə etməyib. Hətta İbn Teymiyyə bu barədə belə deyir: “Əl Tirmizi düzgün sənədlə peyğəmbərdən nəql etmişdir ki, o, bir kişiyə bu cür dua etməyi öyrətmişdir: “Ey Allahım, mən üzümü Sənə tutaraq peyğəmbərinə and verib xahiş edirəm...” Həmçinin Əl Nəsai eyni duanı nəql etmişdir.

Əl Tirmizi belə demişdir: “Bu hədis haqq, həsən və səhihdir.”

İbn Macə demişdir: “Bu, səhih hədisdir.”

Əl Rifai belə deyir: “Şübhəsiz bu hədis səhih və məşhurdur.”

Bu sözlərdən sonra daha bu hədisin düzgünlüyünə heç bir şəkk və şübhə qalmır.

İndi isə məzmun baxmından hədisi təhlil edək. Bu hədis açıq-aşkar bir kor kişinin peyğəmbərin pak, müqəddəs vücuduna onun öz təlimi ilə təvəssül etməsinə dəlalət edir. Baxmayaraq ki, həmin kişi əvvəlcə peyğəmbərdən dua etməsini istəyir, lakin sonda peyğəmbər ona elə bir dua öyrədir ki, həmin dua təvəssülün bir qismini özündə əks etdirir. Hədisdə mühüm olan ele budur.

Başqa sözlə desək, hədisdə inkar edilməyən iki nöqtə vardır:

1. Əvvəlcə ravi peyğəmbərdən dua etməsini istəyir və ilk olaraq təvəssül etmir;

2. Peyğəmbərin həmin kişiyə öyrətdiyi dua təvəsülün qisimlərindən biri olan “onun özü ilə təvəssül” qisminə şamildir. Bu açıq-aşkar təvəssülün bu qisminin qanuni olmasına dəlalət edir.

Hədisdə bu təvəssülün qanuni olmasına dəlalət edən bəzi nöqtələr:

1. “Ey mənim Allahım, mən Səni rəhmət peyğəmbəri Muhəmmədə and verib üzümü Sənə tutur və xahiş edirəm.”;

Burada işlədilən hər iki “üzümü Sənə tutur” və “xahiş edirəm” felləri “Muhəmmədə and verib” sözü ilə sıx əlaqəsi vardır. Və hər hansı artıq bir sözün mənada nəzərə alınmasına heç

bir səbəb yoxdur, yəni “Muhəmmədin duasına and verib” sözünün iddia olunması bu məqamda yersizdir. Çünki lazım olsaydı peyğəmbər özü “dua” sözünü artırardı.

2. “Rəhmət peyğəmbəri Muhəmməd”;

Təvəssülün doğurdan da peyğəmbərin özü ilə olmasını sübut etmək üçün onu da demək lazımdır ki, duada “Səni peyğəmbərə and verib” sözündən sonra “rəhmət peyğəmbəri Muhəmməd” ifadəsi işlənmişdir ki, bu da təvəssülün hansı növdən olduğuna işarə etmək üçündür.

3. “Ey Muhəmməd, mən rəbbimi sənə and verərək üzümü Ona tuturam”;

Bu cümlə peyğəmbərin təliminə görə onun özünü vasitə qərar verir, nəinki onun duasını.

4. “və onu (peyğəmbəri) iltimasçı və vasitəçi qərar ver”;

Bu cümlədə isə demək istəyir ki, ey rəbbim, peyğəmbəri mənim barəmdə iltimasçı və şəfaətçi qərar ver və onun bu şəfaətini qəbul et, nəinki, onun duasını! Çünki hədisdə peyğəmbərin həmin kişi üçün dua etməsi qeyd edilmişdir.

Hətta peyğəmbərin duasının mövcudluğunu ehtimal etsək belə bu bizim mətləbimizə heç bir zərər vurmur. Çünki ehtimala görə hədisdə iki dua var: biri sözləri nəql olunmamış peyğəmbərin duası, digəri isə peyğəmbərin kor kişiyə öyrətdiyi dua. Elə həmin bu duada sözü gedən təvəssülün düzgün olması gəlmişdir. Və heç kim bu duaya, hər hansı formada yalnız peyğəmbərin duasının mövcudluğu ehtimalını əldə əsas tutaraq, dəxalət edə bilməz.

Bu hədisi öz kitablarında böyük əhli sünnət mühəddislərindən Əl Nəsai, Əl Beyhəqi, Əl Təbərani, Əl Tirmizi və Əl Hakim nəql etmişlər. Lakin Əl Tirmizi və Əl Hakim bu hədisi çox cüzi fərqlə nəql etmişlər ki, bunun da bizim mətləbimizə heç bir zərəri yoxdur.

Qeyd: Doktor Əbd əl Malik əl sədi belə demişdir: “Axır zaman meydana çıxmış bir qrup insanlar mütləq surətdə hər hansı bir şəxsin, istər diri, istərsə də ölü olsun, vasitə qərar verilməsini inkar edirlər. Kor kişinin hədisini cürbəcür formalara yozaraq demişlər ki, kor kişi peyğəmbəri vasitə qərar veməyib və peyğəmbər də ona bu cür təvəssül etməyi əmr etməyib, əksinə peyğəmbər ona namaz qılıb ondan dua xahiş etməsini əmr etmişdir. O da öz növbəsində bunu etmişdir.

Lakin siz, əziz oxucular, bu hədisim mətnini diqqətlə oxuyun və bu ehtimalın nə dərəcədə hədisin mətni ilə düz gəldiyinə hökm edin! Doğrudanmı, bu ehtimal hədisdə var?! Yaxud da həmin kişi peyğəmbəri iltimasçı və vasitəçi qərar vermişdir?! Əgər peyğəmbər onun üçün

dua etmək istəsəydi elə əvvəlcədən dua edərdi. Lakin o, belə etmədi, əksinə, kor kişiyə əmr etdi ki, namaz qılıb özü dua etsin!!!

Peyğəmbərin vəfatından sonra onun özünə təvəssül etmək

Bu böyük səhabə Osman ibn Hüneyf qeyd olunmuş hədisdən sonra peyğəmbərə olan təvəssülün istər onun diriliyində, istərsə də vəfatından sonra düzgün olmasını anlamışdı. Buna görə də bəzi diləyi olan insanlar ona müraciət etdikdə peyğəmbərin kor kişiyə öyrətdiyi duanı öyrədərdi. Xoşbəxtlikdən, onun bu göstərişi müvəffəqiyyətli olurdu. Əl Təbərani Əbu Umamı ibn Səhl ibn Hüneyfdən o da öz əmisi Osman ibn Hüneyfdən nəql edir ki, bir kişi üçüncü xəlifə Osman ibn Əffanın yanına bir hacətinə görə gedib-gəlirdi. Osman isə heç ona fikir verməz və istəyinə də baxmazdı. Həmin kişi Osman ibn Hüneyfə rast gəlib ona şikayət edir. Osman ibn Hüneyf isə ona belə deyir: "Dəstəmazxanaya get və dəstəmaz al, sonra isə məscidə get və orada iki rükət namaz qıl və belə de: "Ey mənim Allahım, mən Səni rəhmət peyğəmbəri Muhəmmədə and verib üzümü sənə tutur və xahiş edirəm. Ey Muhəmməd, mən öz hacətim üçün sənin vasitənlə öz rəbbimə üz tuturam ki, hacətim qəbul olsun." Və öz diləyini xatırlayarsan...

Kişi yola düşüb onun dediyini etdi. Sonra Osman ibn Əffanın qapısına gəldi. Qapıçı onun əlindən tutub Osman ibn Əffanın yanına apardı və xalçanın üzərində onun yanında əyləşdirdi. Osman ondan soruşdu: "Diləyin nədir?" Kişi öz diləyini dedi və Osmanda onun istəyini verdi. Sonra Osman ona belə dedi: "Bu vaxta kimi mən sənin diləyini xatırlamırdım? Niyə sən ehtiyacını demirdin?"

Sonra kişi Osman ibn Əffanın yanından çıxdı. Yolda Osman ibn Hüneyfə rast gəldi...

Bu hədis öz məzmununa görə peyğəmbərə təvəssülün düzgün və qanuni olmasına işarə edir. Lakin bu növdən olan təvəssülü bəyənməyənlər iki cəhətdən irad etmişlər:

Birinci irad: Səhabənin nəzərinə görə təvəssül məfhumu, təvəssül olunmuş şəxsin təvəssül edənin barəsindəki duasından ibarətdir.

Cavab: Bu şübhəyə cavab verməzdən əvvəl belə bir suala aydınlıq gətirmək lazımdır. Axı, hansı dəlilə əsasən səhabənin nəzərini əldə edib bununla da hədisin zəifliyinə hökm vermişlər? Səhabənin tabe olduğu nəzəriyyəni hədisdən necə əldə etmək olar? Hətta əgər səhabələrin əsaslandıqları nəzəriyyələri hədis vasitəsilə öyrənməyin mümkünlüyünü qəbul etsək belə bu, yenə də bizim mətləbimizə sübutdur. Çünki sovuşan hər iki hədis böyük səhabə Osman ibn Hüneyfdən nəql olunmuşdur.

İkinci irad: Əgər bu hədis və həmçinin Allah təalanın bu sözü: "Məni çağırın, mən sizə cavab verim." (Ğafir surəsi, 60-cı ayə) düzgün olsaydı onda yer üzündə bir nəfər belə ehtiyacsız insan qalmazdı.

Cavab: Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bu vəhyi darmadağın etmək və onu məsxərəyə qoymaqdan başqa bir şey deyildir. Bilmək lazımdır ki, dua rəhmətin nazil olma səbəbidir, lakin hədəfə yetişməyin tam səbəbi deyildir. Əksinə, hədəfə yetişməyin şərtləri və maneələri vardır. Buna görə də görürük ki, bəzi dualar qəbul olmur. Lakin buna baxmayaraq Allah təala bu duaya təşviq edir və dua edənin duasına cavab verir. Bir daha qeyd etməliyik ki, çox vaxt bizdən asılı olan və asılı olmayan səbəblər üzündən dua qəbul olmur! Allah təala belə buyurur: "Sizin rəbbiniz demişdir, məni çağırın, Mən sizə cavab verim" (Ğafir surəsi, 60-cı ayə).

Hədisin sənəd baxımından təhlili:

Hədisin sənədinə irad tutanlar belə iddia edirlər ki, hədisi nəql edən ravilər arasında Ruh ibn Saleh adlı hədis alimləri tərəfindən zəif hesab olunmuş bir nəfər var. Bir çox alimlər, o cümlədən, İbn Udey və İbn Yunis belə demişlər: "(Həmin ravi) ziddiyətli hədislər nəql etmişdir."

Məlumdur ki, bu sözü deyən, hədisin tam sənədinə nəzər salmamış və sadəcə olaraq başqalarının sözünü nəql etmişdir. Biz, hədisin tam sənədini sizə təqdim edirik:

Əl Təbərani öz kitabı "Əl möcəm əl kəbir"də belə nəql etmişdir: "Tahir ibn İsa ibn Qeyrəs əl Misri əl Muqri Əsbəğ ibn əl Fərəhdən, o da İbn Vəhəbdən, o isə Əbu Səid əl Məkkidən, o isə Ruh ibn əl Qasimdən, o isə Əbu Cəfər əl Xatami əl Mədənidən, o isə Əbu Umamə ibn Səhl ibn Huneyfdən və o da öz növbəsində əmisi Osman ibn Huneyfdən nəql etmişdir."

Həmçinin, bu hədisi Əhli sünnət hədis alimi Əl Beyhəqi də başqa bir sənədlə qeyd etmişdir. Həm Əl Təbəraninin, həm də ki, Əl Beyhəqinin qeyd etdiyi hədislərin sənədlərində Ruh ibn Saleh adlı ravi yoxdur, lakin mövcud olan, Ruh ibn əl Qasimdir. Belə görünür ki, irad edən, hədisin heç bir sənədinə baxmamış və başqasının sözünü kor-koranə nəql etmişdir.

Tutaq ki, hədisi nəql edən ravilərin arasında Ruh ibn Saleh adlısı da vardır. Bu, hələ heç nə demir. Çünki həmin ravini yalnız İbn Udey zəif hesab etmiş, lakin, eyni zamanda, İbn Həbban və Əl Hakim onu doğrucul ravi hesab etmişlər.

Əl Zəhəbi belə demişdir: "Ruh ibn Saleh əl Misrini ibn Udey zəif hesab etmişdir. Lakin İbn Həbban onu düz danışan və etimad olunan ravilərin sırasında qeyd etmişdir. Əl Hakim isə belə demişdir: "Düz danışan və etimad olunandır."

Keçmiş ümmətlərin müqəddəs insanlara təvəssül etməsi

Müqəddəs insanlara təvəssül etmək İslam peyğəmbərinin dövründə yeni, qeyri-adi bir fenomen deyildi. Bu fenomen İslam dinindən əvvəl olan adət-ənənənin şüurlu davamı idi. Biz burada bəzi həmin təvəssüllərdən qeyd edirik ki, qəlb gözü kor olanlar bilsinlər ki, sağlam insan zövqü insanı pak və müqəddəs insanlara təvəssül etməyə səsləyir:

1. Ömər ibn əl Xəttabın peyğəmbərin əmisi Abbasa təvəssül etməsi:

Əl Buxari öz "Səhih"ində belə yazır: "Qəhətlik vaxtı Ömər ibn əl Xəttab peyğəmbərin əmisi Abbasa təvəssül edərək Allahdan yağış yağmasını diləyib belə deyirdi: "Ey Allahım, biz peyğəmbərə təvəssül edərdik və Sən də yağış yağdırardın, indi isə peyğəmbərin əmisinə təvəssül edirik bizə yağış yağdır." Ravi deyir: "Beləcə, yağış yağardı."

Bu hədisin sənədi düzgündür. Elə isə, Əhli sünnətin ən görkəmli hədis alimi Əl Buxarinin nəql etdiyi bu hədisə sözün nədir?! Əlbəttə ki, təvəssülə etiqadı olmayan insan hər cür ciddi cəhdlə bu hədisi yozmağa çalışacaq, lakin hər şey göz qabağındadır!!!

2. İbn əl Əsir istisqanın (yəni Allahdan yağış yağmasını istəmək) keyfiyyətini təsvir edərək belə yazır: "Ömər ibn əl Xəttab Abbasa təvəssül edərək Rəməda ilində istisqa etmiş və Allah təala da onlara yağış yağdırmışdır. Və beləcə, yerin üzü əkin üçün yararlı oldu. Ömər belə dedi: "And olsun Allaha ki, bu Allaha vəsilədir və Onun dərgahında bir məqamdır. Və Həssan ibn Sabit də onun sözünə dəstək olaraq belə dedi:

Davam edən zaman quraqlıq, dua etdi imam
Peyğəmbərin əmisi və atasının oxşarı
Allah ona xatir torpaqları diriltdi

Abbasın izzətinə yağdırdı buludlar
Yalnız peyğəmbərdən irs apardı bunu
Məyusluqdan sonra yaşıllaşdı hər tərəf[32]

[32] فسقى الغما م بغر ة العبا س سا ل الامام وقد تتابع جدبنا
و ر ث النبي بذ اك دون النا س عم النبي و صنوو الده الذ ي

Yağış yağan kimi Abbasa əl çəkib təbərrük edərək belə deyirdilər: “Xoş halına, ey hərəmeynin saqisi!”

Doktor Əbd əl Malik ibn əl Sədi belə yazır: “Bu hədisi yozaraq belə deyirlər ki, guya, Ömər Abbasdan dua etməsini istəmişdir. Çünki onlar qəhətlikdən əzab çəkəndə peyğəmbərin dua etməsini xahiş edərdilər və bu məqam da ona bənzəyir. Lakin yozma qəbuledilməzdir. Əvvala ona görə ki, adətə görə İmam dua edər, camaat isə “Amin” deyər. Burada isə Ömərin dua etməsi qeyd olunmuşdur.

Bundan əlavə, bir şeyi də qeyd etmək lazımdır ki, Ömər Abbasın dua etməsini istəməmiş, əksinə bu işi birbaşa özü etmişdir.

Görəsən, hədisin zahiri manasının qəbul edib bu inadkarlığı və təəssübkeşliyi tərk etsək nə olar?!

Əhli sünnət alimi İbn Həcər “Fəth əl bari” kitabında belə demişdir: “Abbasın əhvalatından belə məlum olur ki, saleh insanlar və peyğəmbər əhli beytinə təvəssül etmək müstəhəb əməldir. Bunların içində Abbasın fəziləti vardır. Ömər də öz növbəsində Abbasa təvazökarlıq etdiyinə görə fəzilətə malikdir.”

Bu səhih hədislərdən sonra atıq şəkk və şübhəyə yer qalmır.

Saleh insanların mənəvi məqamlarına təvəssül

Müsəlmanlar içərisində İslam təlimi çərçivəsində olan təvəssüllərdən biri də saleh insanların Allah dərgahında olan məqam və haqlarına təvəssül edilməsidir. Lakin belə bir sual ortaya çıxır: “Görəsən, hər hansı bir insanın Allah üzərində haqqı varmı?!”

Qətiyyən, yox! Bəndələr üzərində olan bütün haqlar yalnız Allaha məxsusdur. Verilən sualın cavabı aydındır. Çünki bəndələrdən heç bir kəsin Allah təala üzərində zati haqqı yoxdur. Bəs, onda, saleh insanların məqam və haqları haradan əmələ gəlmişdir?! Bunlar hamısı Allahın öz bəndələrinə onların Allaha sözsüz itaətlərinə görə verdiyi haqlar və məqamlardır. Qurani Kərim belə buyurur: “...Möminlərə yardım etmək bizim boynumuzda bir haqdır” (Əl Rum surəsi, 47-ci ayə).

Böyük Əhli sünnət alimlərindən biri Müslüm Məaz ibn Cəbəldən o isə peyğəmbərdən belə nəql edir: “Allahın rəsulu mənə belə buyurdu: “Heç bilirsənmi Allahın bəndələri üzərində haqqı nədir?” Məaz belə dedi: “Allah və Onun rəsulu daha yaxşı bilər.” Peyğəmbər belə buyurdu: “Allahın bəndələri üzərində haqqı Ona ibadət etmələri və Ona heç bir şeyi şərik qərar verməmələridir!” Bir müddət seyr edəndən sonra belə buyurdu: “Ey Məaz!” Dedim: “İtaətinizdəyəm, ey Allahın rəsulu! Allah sizə həyan olsun!” Buyurdu: “Heç bilirsənmi, əgər bu işi görsələr bəndələrin Allah üzərindəki haqqı nədir?” Dedim: “Allah və Onun rəsulu daha yaxşı bilər.” Belə buyurdu: “Onlara əzab verməsin!”

Əhli sünnətin böyük hədis alimləri Əl Tirmizi, İbn Həbban və Əl Hakim Əbu Hüreyrədən və o da peyğəbərdən belə nəql edir: “Allahın rəsulu belə buyurdu: “Üç qrup insana yardım etmək Allah üzərində haqdır; Allah yolunda cihad edən, sövdələşməyə əsasən borcunu əda etmək istəyən və iffətli olmağı istəyib evlənən.” Əl Tirmizi bu hədisi həsən və səhih hesab etmişdir.

Bu iki hədis, bəndələrin Allah üzərində haqlarının olmasını isbat edir. Lakin bu haqq nəinki Allah üzərində öhdəçilik, əksinə, hörmət və izzət mənasındadır.

Möminlərin ağası Əli ibn Əbu Talibin (ə) bu barədə gözəl sözləri vardır. O Həzrət belə buyurmuşdur: “Haqq vəsf ediləsi məfhumların ən genişi, lakin insaf məqamında ən dar olan məfhumlardan biridir. İki nəfərdən birinin digəri üzərində haqqı olduğu kimi digərinin də onun üzərində haqqı vardır. Lakin əgər bir nəfərin digəri üzərində haqqı olarsa və digərinin onun üzərində haqqı olmazsa onda bu, yalnız və yalnız Allaha məxsusdur, nəinki bəndələrinə. Çünki Allahın bəndələr üzərində qüdrəti və bütün baş verən hökmlərinin dəyişkənliyində ədaləti vardır. Lakin Allah təala bəndələr üzərində öz haqqını ona itaətdə və öz tərəfindən hörmət əlaməti və vüsət olaraq mükafatlarını savablarının iki qat olmasını özünə haqq bilməkdə qərar vermişdir. Çünki O, öz əhlini daim vüsətdə qərar verər.”[33]

İmam bu xütbədə insanların Allah üzərindəki haqqını izah edərək bildirir ki, bu haqq zati deyildir, əksinə bütün bunlar Allahın öz bəndələrinə olan hörmət, mərhəmət və minnətidir. Həmin bu lütfü digər yerlərdə də müşahidə edirik, belə ki, bəndələrin tam maliki olmasına baxmayaraq buyurur: “Hər kim Allaha gözəl borc verə Allah onun üçün borcu ikiqat edər...” (Əl Bəqərə surəsi, 245 və Əl Hədid surəsi, 11-ci ayələr).

Artıq bu açıqlamalardan sonra məlum olur ki, insanların Allah təala üzərindəki haqqı minnət və mərhəmət üzündəndir. Onu da qeyd etməliyik ki, bu növdən olan təvəssül heç də peyğəmbərin şəxsiyyətinə olan təvəssüldən fərqlənmir. Peyğəmbərin Allah dərgahındakı

[33] Seyid Rəzi, “Nəhcül Bəlağə”, Xütbələr qismi

məqamı onun uca şəxsiyyətinin aynasıdır. Hər bir insanın hörmət və kəraməti onun şəxsiyyət kimi formalaşmasından irəli gəlir. Əgər peyğəmbərə təvəssül düzgündürsə onda heç bir şəkk, şübhə olmadan bu növdən olan təvəssül də düzgündür. Bu məqamda gələn bəzi hədisləri xatırlayaq:

1. Allaha iltimas edənlərin haqqına təvəssül etmək

Ətiyyə ibn Ovi Əbu Səid əl Xidridən və o isə öz növbəsində peyğəmbərdən belə nəql edir ki, peyğəmbər belə buyurmuşdur: "Hər kəs evindən çıxıb namaza gedən halda belə desə: "Ey mənim Allahım, mən Səndən, Sənə iltimas edənlərin haqqna and verib xahiş edirəm. Səni, bu yolunun haqqına and verərək xahiş edirəm. Mən şər törətmək, lovğalanmaq, özünü göstərmək və şöhrət qazanmaq üçün çıxmamışam. Yalnız Sənin qəzəbindən qorxaraq və razılığını əldə etməkdən ötrü çıxmışam ki, məni cəhənnəmdən qoruyasan və günahlarımı bağışlayasan. Günahları bağışlayan yalnız Sənsən!"- Allah təala ona yaxınlaşar və onun günahları üçün yetmiş min mələk bağışlanmaq dilər."

Bu hədis İbn Macənin "Sünən" kitabında sənəd baxımındn zəif hesab olunsa da, lakin İbn Xüzeymənin "Səhih" kitabında Fudayl ibn Mərziqdan nəql etdiyi variantı sayılır. O ki, qaldı hədisin məzmununa bu, tamamilə açıq aşkardır və artıq şərhə ehtiyac yoxdur.

2. Peyğəmbərin haqlarına təvəssül

Əl Təbərani Ənəs ibn Malikdən nəql edir ki, Əli ibn Əbu Talibin (ə) anası Fatimə binti Əsəd vəfat edəndə peyğəmbər onun otağına daxil olub baş tərəfində əyləşdi. Belə buyurdu: "Allah sənə rəhmət eləsin, mənim anam! Doğma anamdan sonra mənə analıq etdin. Özün ac qalıb məni doyurdun, əyninə geyinməyib məni geyindirdin. ən gözəl təamları özünə rəva bilməyib mənə yedirdin. Bununla Allahı və Axirəti qazanmaq istədin."

Sonra əmr etdi ki, üç-üç qüsl verilsin. Növbə, içində kafur olan suya yetişdikdə peyğəmbər onu öz əli ilə tökdü. Sonra əynindəki köynəyi çıxardıb ona geyindirib üstündən bir örtüklə kəfənlədi. Sonra peyğəmbər Üsamə ibn Zeyd, Əbu Əyyub əl Ənsari, Ömər ibn əl Xəttab və bir qara qulu səsləyib qəbr qazmalarını istədi. Qəbr çuxuruna yetişdikdə peyğəmbər onun özü əli ilə qazıyıb torpağını çıxartdı. İşi bitirdikdən sonra qəbrə girib orada uzanaraq belə dedi: "Allah dirildən və öldürəndir. O, diri və ölməzdir. Mənim anam Fatimə binti Əsədə rəhm et və ona inanclarını təlqin et. Onun qəbrinə vüsət ver. Səni and verirəm öz peyğəmbərinin və məndən əvvəlki peyğəmbələrinin haqqına. Həqiqətən, Sən rəhimlilərin rəhimlisisən!" Dörd dəfə təkbir deyib onu Abbas və Əbu Bəkrlə birgə qəbrə qoydular.

Bu hədisdən dəlil gətirmək onun həm sənəd, həm də məzmun baxımından düzgün olmasından asılıdır. Məzmuna gəlincə isə onun barəsində heç bir münaqişə ola bilməz.

Sənədə gəlincə isə bu hədisi nəql edən bütün ravilər doğrucul insanlardır. Lakin Ruh ibn Salehə gəlincə isə onu İbn Həbban və Əl Hakim doğrucul olduğunu demişlər.

Bu hədisi bir çox Əhli sünnət hədis alimləri və onların ustadları kitablarında nəql etmişlər. Aşağıda bir neçəsinin adını qeyd edirik:

1. Əl Hafiz Əbulqasim Süleyman ibn Əhməd əl Təbərani "Əl möcəm əl övsət"

2. Əbu Nueym "Hilyət əl övliya"

3. Əl Hakim "Müstədrək" də. Onu da qeyd etmək lazımdır ki, Əl Hakim bu kiabda yalnız səhih hədisləri ya Əl Buxari və yavud da Müslümdən nəql edir.

4. İbn əbd əl Birr "Əl istiab ilə hamiş əl isabə"

5. Əl Zəhəbi "Siyər əlam əl mübəla"

6. Əl Hafiz Huruddin əl Heysəmi "Möcəm əl zavaid və mənbə əl fəvaid"

7. Əl Müttəqil əl Hindi "Kənz əl Ümmal"

Bu böyük hədis alimləri yuxarıda qeyd olunan hədisi öz kitablarında səhih hesab etmişlər.

3. Adəm (ə) peyğəmbərin Muhəmməd (s) peyğəmbərin haqqına təvəsssül etməsi

Artıq bəndənin Allah üzərindəki haqqının həqiqəti ilə tanış oldunuz. Əhli sünnət alimi Nuruddin əl Səmhudi belə demişdir: "Məlumdur ki, peyğəmbərin Allah dərgahında tutduğu məqam, kəramət və peyğəmbər iltimasçı qərar verilməsi, ondan yardım dilənməsi peyğəmbərlərin və bizdən olan saleh möminlərin işidir. Bu iş peyğəmbər yaranmamışdan əvvəl və yarandıqdan sonra, dünya həyatında, Bərzəx həyatında və Qiyamət gününün ərəsatında baş verən bir həqiqətdir.

Əgər saleh əməllərə and verib diləmək qanuni və düzgündürsə onda peyğəmbərə and verib diləmək daha da düzgün və qanuni olmalıdır. Adətən, əgər bir şəxsin digəri yanında hörməti olarsa və ona təvəssül edilərsə həmin təvəssül edən şəxsin diləyi hörmət əlaməti olaraq qəbul olunar. Hətta çox vaxt sevimli adamın adının və yaxud da böyük bir şəxsiyyətin adının xatırlanması istəyin yerinə yetirilməsinə səbəb olar."

Doktor Əbd əl Malik əl Sədi belə demişdir: "Əgər belə desən: "Ey Allahım, mən sənə filan şəxsin məqamını vasitə qərar verərək xahiş edirəm..." Bu cür təvəssül qanuni və düzgün olmasında şəkk və şübhəyə yer olmamalıdır. Çünki məqam saleh əməllərin nəticəsidir. Allah təala Musa peyğəmbər barəsində belə buyurur: "...Onun Allah yanında hörməti vardır." (Əl

Əhzab surəsi, 69-cu ayə) və İsa peyğəmbər barəsində buyurur: "...Dünya həyatında və Axirətdə hörməti vardır." (Ali İmran surəsi, 45-ci ayə). Əgər insaflı olsaq məqama təvəssül edən insana irad tutmarıq."

Bu deyilənlərə əlavə olaraq, onu qeyd etmək istərdik ki, əgər Qurani Kərimə təvəssül etmək düzgündürsə, onda canlı Quran olan peyğəmbərə təvəssül etmək daha da düzgün olmalıdır. Çünki peyğəmbər danışan Quran və onun təmsilçisidir.

Ömər ibn əl Xəttab peyğəmbərdən nəql edərək deyir ki, peyğəmbər buyurmuşdur: "Adəm peyğəmbər xəta etdikdən sonra belə dua etmişdir: "Mənim rəbbim, Səni Muhəmmədin haqqına and verib xahiş edirəm ki, məni bağışlayasan." Allah təala ona belə cavab verdi: "Ey Adəm, Muhəmmədi necə tanıdın, halbuki Mən hələ onu yaratmamışam?" Adəm belə dedi: "Ey mənim rəbbim, sən məni öz əlinlə xəlq edib mənə öz ruhundan üfürdükdən sonra başımı qaldırıb ərşin sütunlarında bu yazını gördüm: "Allahdan başqa bir məbud yoxdur və Muhəmməd də Onun rəsuludur." Bildim ki, Sən məxluqatın içində ən sevimli şəxsin adını öz adınla birgə çəkmisən." Allah təala belə buyurdu: "Düz dedin, ey Adəm. O, məxluqatın içində Mənim ən sevdiyim şəxsdir. Və əgər Məni onun haqqına and verib xahiş etsən əfv edərəm. Əgər Muhəmməd olmasaydı səni yaratmazdım."

Bu hədisin sənədi səhihdir, lakin Əbdürrəhman ibn Zeyd ibn Əsləmin barəsində bir qədər söz-söhbət yaranmışdır. Lakin Əhli sünnət alimi Əl Hakim bu hədisi sənəd baxımından səhih hesab etmişdir, bu şərtlə ki, həmin hədis ya Əl Buxari, ya da Müslümdən nəql olunsun. Əgər Əl hakimin bu hədisi səhih hesab etməsi qəbul deyilsə belə bu hədis bizim mətləbimizi sübut etmək üçün yardımçı rolunu oynayacaq. Çünki ravinin zəif olması hədisin yalan və uydurma olması demək deyildir.

Burada bir nöqtəyə işarə etmək istərdik ki, buna əvvəllər də işarə etmişdik. Bu nöqtə ondan ibarətdir ki, əgər peyğəmbərin şəxsiyyətinə təvəsüül etmək müsəlmanlar içərisində qeyri-qanuni olsaydı, onda hədis uyduran bu məzmunda hədis uydurmağa cəsarət etməzdi. Çünki hədis uyduranın məqsədi insanları öz uydurduğu hədisə cəlb etməsi və hədisi qəbul etmələridir. Bu hədəf, hədisin məsumlardan nəql olunduğu dövrdə müsəlmanların etiqad etdiyi məsələyə müxalif olan bir məzmunla uyğun gəlmir. Bununla da, məlum olur ki, hədis hər iki halda, istər düzgün, istərsə də uydurma olsun peyğəmbərin şəxsiyyətinə təvəssülü isbat edir.

Qeyd: Bu hədisdə Adəm peyğəmbərin xəta etməsi xatırlanır. Lakin qeyd etməliyik ki, əqli və nəqli (yəni hədislərdə) dəlillərlə sübuta yetirilmişdir ki, peyğəmbərlər günah, səhv və xətadan məsumdurlar. Bu insanlar böyük və məsuliyyətli bir missiyanı daşıdıqları üçün əgər xətaya yol versələr onda, bu, insanları onların danışdıqları hər bir sözündə şəkk etməsinə

səbəb olardı. Məlumdur ki, Allah təala peyğəmbərləri insanları zəlalət, zülmət, şəkk və şübhədən çıxarıb hidayətə doğru aparmaları üçün göndərmişdir. Əgər onların missiyası bu hədəfi təmin etməsə onda Allahın peyğəmbər göndərməsi məsələsi puç və əbəs olardı. Allah isə puç və əbəs iş görməz!

Peyğəmbərlərin Allah dərgahındakı məqamına təvəssül

Təvəssülün bu qismi əslində peyğəmbərin haqqına olan təvəssülə aiddir. Daha dəqiq desək, təvəssülün yalnız bir qismi vardır. Bu da peyğəmbər və saleh insanların paklığı, şəxsiyyətləri, hörmətləri və Allah dərgahındakı məqamlarının vasitə qərar verilməsidir. Peyğəmbərin duasının qəbulu onun zatının və ruhunun müqəddəsliyi və paklığından irəli gəlir. Bu məqamda Şeyx Məhəmməd əl Fəqqinin gözəl sözləri yada düşür. Onun məzmununu sizə təqdim edirik:

"Peyğəmbərlər digər insanlardan bəzi cəhətlərlə; o cümlədən böyük məsuliyyət daşımaları, vəsfə gəlməyən xüsusiyyətləri, müxtəlif xariqələr və möcüzələr yaratmaqları ilə fərqlənirlər. Qurani Kərim belə buyurur: "...Bu, Allahın fəzlidir. İstədiyinə verər. Allah böyük fəzilət sahibidir" (Əl Hədid surəsi, 21-ci ayə).

Bu vergilər və imtiyazları peyğəmbərə verən Allah onların dualarının qəbul olunmasını bir növ özünə borc bilmişdir. Çünki onlar Allahın yer üzərindəki xəlifələridirlər. İnsanlar onlara çətinlik və müsibət üz verən kimi peyğəmbərlərə və saleh insanlara üz tutur və onlara sığınırlar. Həmçinin Allah təala öz bəndələri içərisindən bəzilərini seçmiş və onları əzizləmişdir. Onlar dünya ticarətinə uymayan, namazı bərpa edən, zəkat verən, gözlərin və qəlblərin titrədiyi gündən qorxan, hüzn və qorxu bilməyən Allah dostları, Allah dərgahında böyük məqam sahibləri və duaları daim qəbul olan insanlardır.

Bu insanların iltimasçı və vasitəçi salınması, onların məqamlarına and verib yardım diləmək barəsində hədislər və rəvayətlər daha çoxdur. Xüsusilə də, çox çətin bir bəla üz verəndə, Qiyamət gününün əlamətləri təzahür edən zaman və insanlar bu qorxu və dəhşətdən məst olduqları və hamilə qadınlar öz yüklərini qorxunun əzəmətindən saldıqları anda peyğəmbərlərdən onlara yardım etmələrini diləyərlər. Bu zaman onların hər biri öz növbəsində iltimasçıların ən xeyirlisi və ən böyüyü olan hamiyə həvala edərlər. Bununla şəfaət və yardım qibləsi olan İslam peyğəmbərinə işarə edərlər. O da öz növbəsində kəramət və fəzl sahibi kimi tanındığına görə onların fəryad nidalarını cavabsız qoymaz.

Əhli sünnətin böyük hədis alimlərindən olan əl Buxari və Müslüm Əbu Hüreyrədən nəql etmişlər ki, o Həzrət belə buyurmuşdur: "Mən qiyamət günu insanların ağasıyam. Heç

bilirsiz bu məqam nəyə görədir? Allah təala Qiyamət günü insanları əvvəldən axıra kimi bir yerə cəm edəcək. Car çəkən mələk nida edəcək, insanlar həqiqətləri görəcək, günəş yaxınlaşacaq. Bunların nəticəsində onları dərd-qəm bürüyəcək və belə deyəcəklər: “Başınıza gələni görmürsünüzmü? Niyə sizin üçün rəbbinizə iltimas edənə baxmırsınız?” Bəziləri deyərlər: “Adəmi görün.” Onlar Adəmin yanına gəlib deyərlər: “Sən bəşərin atasısan. Allah səni öz əli ilə yaratmış və sənə öz ruhundan üfürüb, mələklərə sənə səcdə etməyi əmr etmişdir. Öz rəbbinə bizim üçün iltimas et. Bizim halımızı görürsənmi? Bizim hara yetişdiyimizi görürsənmi? Adəm deyər: “Rəbbim bu gün elə qəzəblənib ki, nə əvvəl, nə də sonra belə qəzəblənməyəcək. O, ağaca toxunmağa mənə qadağan etdi, lakin sözə baxmadım. Ey dad! Ey dad! Ey dad! Başqasının yanına gedin. Nuhun yanına gedin.

Nuhun yanına gəlib belə deyərlər: “Ey Nuh, Sən yer əhlinə rəsulların ən birincisisən. Allah təala səni şükür edən bəndə adlandırıb. Bizim üçün öz rəbbinə iltimas et. Bizim halımıza bir baxarsanmı? Nuh deyər: “Rəbbim bu gün elə qəzəblənib ki, nə əvvəl, nə də sonra belə qəzəblənməyəcək. Mənim lənət etmək haqqım var idi, mən də öz qövmümə lənət etdim. Ey dad! Ey dad! Ey dad! Başqasının yanına gedin. İbrahimin yanına gedin.

Onlar İbrahimin yanına gəlib deyərlər: “Ey İbrahim, Sən Allahın nəbisisən və Yer əhlinin içində onun dostusan. Bizim üçün öz rəbbinə iltimas et. Bizim halımıza bir baxarsanmı? İbrahim deyər: “Rəbbim bu gün elə qəzəblənib ki, nə əvvəl, nə də sonra belə qəzəblənməyəcək. Mənim lənət etmək haqqım var idi, mən də öz qövmümə lənət etdim. Ey dad! Ey dad! Ey dad! Başqasının yanına gedin. Musanın yanına gedin.

Musanın yanına gəlib deyərlər: “Ey Musa, sən Allahın rəsulusan. Allah təala sənə risalət verməklə və səninlə danışmaqla insanlardan üstün etmişdir. Bizim üçün öz rəbbinə iltimas et. Bizim halımıza bir baxarsanmı? Musa deyər: “Rəbbim bu gün elə qəzəblənib ki, nə əvvəl, nə də sonra belə qəzəblənməyəcək. Mən xəta üzündən insanlardan birini öldürmüşəm. Ey dad! Ey dad! Ey dad! Başqasının yanına gedin. İsanın yanına gedin.

İsanın yanına gəlib deyərlər: “Ey İsa, sən Allahın rəsulu, Məryəmə əta etdiyi kəliməsisən. Sən Allahın ruhundansan.İnsanlarla beşikdə ikən danışmısan. Bizim üçün öz rəbbinə iltimas et. Bizim halımıza bir baxarsanmı? İsa deyər: “Rəbbim bu gün elə qəzəblənib ki, nə əvvəl, nə də sonra belə qəzəblənməyəcək. Ey dad! Ey dad! Ey dad! Başqasının yanına gedin. Muhəmmədin yanına gedin.

Muhəmmədin yanına gəlib deyərlər: “Ey Muhəmməd, Allahın rəsulu, peyğəmbərlərin sonuncususan. Allah təala sənin keçən və gələcək günahlarını bağışlayıb. Bizim üçün öz rəbbinə iltimas et. Bizim halımıza bir baxarsanmı?

Mən yola düşüb ərşin altına gələrəm. Rəbbimə səcdəyə düşərəm. Allah təala məni gözəl tərif və başqasını həmd etmədiyi bir tərzlə məni həmd edər. Sonra nida gələr: "Ey Muhəmməd, hər nə diləyirsən dilə sənə verilər və iltimas et iltimasın qəbul olunar. Mən başımı qaldırıb deyərəm: "Ümmətim, ey mənim rəbbim! Ümmətim, ey mənim rəbbim!" Və belə cavab gələr: "Ey Muhəmməd, ümmətindən boynunda hesabı olmayanları cənnət qapılarından biri olan sağ qapıdan daxil et. Bu qapıdan başqa digər şeylərdə onlar insanlarla bərabərdirlər." Sonra peyğəmbər buyurdu: "And olsun canım əlində olan Allaha, cənnət qapılarının bir layı arasındakı məsafə Məkkə və Humeyra, digər layı arasındakı məsafə isə Məkkə və Bəsrə arasındakı məsafə kimidir."[34]

Göründüyü kimi hədis peyğəmbər məqamına təvəsüllün qanuni və düzgün olmasına dəlalət edir. Peyğəmbər və övliyalara təvəssül onların cism olduqlarına görə deyil, əksinə ruhlarını ali mərtəbədə olmasına görədir. Bu mərtəbə isə həm dünya həyatında, həm də Bərzəx həyatında eynidir. Deməli təvəssüldə dünya həyatı ilə Bərzəx arasındakı fərq təvəssülün maddi nöqteyi nəzərdən izah olunmasıdır.

Əziz İslam peyğəmbəri bütün fəzilətlərin və kəramətlərin zirvəsi və qütb nöqtəsidir. Bu mənəvi məqam hər halda sabitdir. Peyğəmbər, övliya və saleh insanları istər dünya həyatında, istərsə də Bərzəx həyatında özlərinə vasitə və səbəb bilənlər İslam dininin cızdığı çərçivədən kənara çıxmamışlar. Çünki səbəb və vasitələri inkar etmək olmaz. Allah təala özü bu səbəbləri və onlara uyğun nəticələri yaratmışdır. Beləliklə, bu səbəblərə iltimas edənlər Allahın əmrlərinə iltimas etmiş kimidir.

İki ayənin təfsiri

Artıq peyğəmbər, övliya və saleh insanlara təvəssülün müxtəlif formaları daxil olmaqla bərabər qanuni və düzgün olmasını bildiniz. Lakin bəzi Quran ayələrinin təvəssül ətrafında şübhə törətməsi məsələsi ortaya çıxa bilər. Buna görə də bu məqalənin kamil olması üçün şübhə törədən ayələrin təfsir olunması zəruriliyi meydana çıxır. Bildiniyiniz kimi Quran Allahın kəlamı olduğu üçün burada ayələr arasında heç bir ziddiyət ola bilməz. Həmçinin, peyğəmbər və Əhli beytin rəvayətləri də Quran ayələrinə heç bir ziddiyət təşkil edə bilməz. Bu ayələrin təfsir olunması həm də ona görə zəruridir ki, əqidəsi xəstə olan insanlar bu ayələri öz əqidəsinə münasib olan şəkildə təfsir etməsinlər.

Birinci ayə:

[34] Əl Buxari, "Səhih"., Müslüm "Səhih", Əhməd ibn Hənbəl, "Müsnəd"

Allah təala buyurur: “(Ey peyğəmbər) Ondan (Allahdan) başqasını güman edənlərə de ki, onları nida etsinlər. Onlar (sizin güman etdiklərиniz) hər hansı bir problemi həll etmək və ya dəyişdirmək iqtidarında deyillər. Onların nida etdikləri kəslər özləri rəblərinə doğru ən yaxın vasitə axtarır, Onun rəhmətinə ümid edir və əzabından qorxurlar. Həqiqətən sənin əzabı təhlükəlidir” (Əl İsra surəsi, 56 və 57-ci ayələr)

Bu ayələr vasitələrin hər hansı problemi aradan qaldırmasını və ya onları dəyişdirməsini güman edərək onlara pərəstiş edənləri məzəmmət edir. Öz hədəflərinə yetişməkdən ötrü onlar cin, mələk və başqa varlıqlara ibadət edir və onları Allah adlandırırdılar. Bu ayələr isə onların ilahiliyini inkar edir və sübut edir ki, ibadət olunmağa haqqı olan Allah yalnız o Allahdır ki, fayda verə və yaxud da zərər yetirə bilər. Çünki bu mətləb ilahiliyin zəruri məsələlərindəndir. Amma onların nida etdikləri varlıqlar isə nə fayda verə, nə də zərər yetirə bilərlər. Bununla da onların ilahiliyinin puç və batil olması aydınlaşır.

Bundan əlavə onların ilahiliyinin batilliyi başqa bir dəlillə də görünür. Bu dəlilin xülasəsi bundan ibarətdir ki, ibadət etdiyiniz və onların fayda və zərər vermələrini güman etdiyiniz kəslər özləri Allahı nida edib Ona yaxın olmağa çalışırlar. Hətta mənəvi baxımdan Allaha yaxın olan varlıq belə Ona doğru vasitə axtarır. Əgər belədirsə, onda yaxın olmayanın halı necə olar?! Və hamı birlikdə Allah təalanın rəhmətinə ümid edir və Onun əzabından qorxurlar. Beləliklə, bu varlıqlara ibadət edilməsi tərk olunmalıdır. Quran bu varlıqları aşağıdakı sifətlərlə vəsf edir:

1. Öz rəblərinə doğru vasitə axtarırlar;

2. Allaha daha yaxın olan varlıqlar Ona yaxın olmaq üçün vasitə axtarır, bəs yaxın olmayanın halı necə olsun?!

3. Və hamı birlikdə Allahın rəhmətinə ümid bəsləyir və Onun əzabından qorxurlar.

Bu ayələrin təvəssüllə heç bir əlaqəsi yoxdur! Görəsən, kim təvəssül edərkən vasitə qərar verdiyi şəxsin ilahiliyinə etiqad edir?! Əgər ayə təvəssülə şamil olsaydı onda: “...Əgər onlar özlərinə zülm edərək sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr, peyğəmbər də onlar üçün Allahdan bağışlanmaq istəyən zaman Allahı tövbələri qəbul edən və rəhimli görərlər.” (Əl Nisa surəsi, 64-cü ayə) ayəsi ilə ziddiyət təşkil edər.

Öz əqidəsinin düzgünlüyünü sübut etməyə çalışan, açıq-aşkar ayələrin müqabilində öz rəyindən əl çəkməyən insan hər nə olursa olsun bu ayələri öz istədiyi kimi təfsir edəcək. Lakin göründüyü kimi bu ayələrlə təvəssülə dəlalət edən ayələr arasında yerlə göy qədər fərq vardır.

İkinci ayə:

Allah təala buyurmuşdur: “Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik.” (Əl Həmd surəsi, 5-ci ayə). Bəzi insanlar belə təsəvvür edirlər ki, peyğəmbər, saleh insanlar və şəhidlərə təvəssül etmək bir növ Allahdan başqa bir varlıqdan yardım diləməkdir. Bu isə Əl Həmd surəsinin 5-ci ayəsi ilə açıq-aşkar ziddiyət təşkil edir.

Cavab: Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, həqiqətdə bu iki məsələ arasında heç bir ziddiyət yoxdur. Çünki başqasından yardım diləyərkən yardım edilməsi üçün qüvvət və qüdrətin yalnız Allah tərəfindən onlara verilməsinə etiqad edilməlidir. Deməli, bu işlərin yalnız Allah qüdrəti ilə həyata keçməsinə etiqad etmək yardımın Allaha məxsus olmasını bir daha təkid edir!

Lakin əgər yardım diləyən insanla Allah arasında olan bu vəsitələrin və səbəblərin müstəqil qüdrətə malik olmasına, başqa sözlə desək, ilahiliyinə etiqad edilərsə onda qeyd olunmuş ayə ilə ziddiyət təşkil edərdi.

Quran bir çox ayələrdə Allahın fellərini yalnız və yalnız Ona məxsus edir və eyni zamanda da həmin felləri digərlərinə nisbət verir. Lakin bununla belə arada heç bir ziddiyət meydana çıxmır. Allah təala buyurur: “...Yalnız Səndən yardım diləyirik.” (Əl Həmd surəsi, 5-ci ayə) və eyni zamanda başqa bir yerdə belə buyurur: “Səbr (oruc) və namazla yardım diləyin. Bu, Allahın əzabından qorxanlardan başqa digərləri üçün böyükdür” (Əl Bəqərə surəsi, 45-ci ayə).

Doktor Əbd əl Malik əl Sədi deyir: “Hər kim təvəssülü qadağan edib bu ayəni: “Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım dilıyirik” (Əl Həmd surəsi, 5-ci ayə) və İbn Abbasın rəvayətini: “Əgər yardım diləsən, Allahdan dilə.” və peyğəmbərin: “Məndən yardım diləməyin, həqiqətən, hami Allahdır.” bu sözünü dəlil gətirərsə, onda cavab olaraq qeyd etmək lazımdır ki, “yardım” iki qisimdir: biri həqiqi, digəri isə məcazi. Həqiqi yardım edən Allah təaladır, deməli, digərindən yardım diləmək məcazidir. Əgər Allah həmin vasitəyə qüdrət verməsəydi onda o, yardım edə bilməzdi. Bununla da məlum olur ki, vasitə yalnız Allahın ona verdiyi qüdrət və səltənətlə insana yardım edə bilər. Çünki Allahın qüdrət və iradəsindən başqa bir qüdrət və iradə yoxdur. Ayə həqiqi yardımı yalnız Allaha məxsus edir. Peyğəmbər və İbn Abbasdan qeyd olunan hədislərdə də həmin bu mətləbə işarə var. Başqa sözlə desək, bu hədislər insana həqiqi yardımın yalnız Allahdan olduğunu başa salır, onu bu mətləbdən qafil olmamasını və qüdrət və səltənəti Allahdan başqasına nisbət verməməsini istəyir. Əgər ayə və hədislər bu cür izah olunmasa onda: “... yaxşılıq və təqva yolunda biri-birinizə yardım edin.” (Əl Maidə surəsi, 2-ci ayə) ayəsi ilə ziddiyət təşkil edərdi. Peyğəmbər buyurmuşdur: “Madam ki, bir insan digərinə yardım edir Allah ona yardım edir.”

Daha yaxşı olardı ki, həqiqi və məcazi sözlərinin əvəzinə müstəqil və qeyri müstəqil sözləri işlədilərdi. Yəni Allah hər şeyə müstəqil surətdə malik və qadirdir. İnsan isə qeyri müstəqil surətdə, Allahın izni ilə başqasına yardım etməyə qadirdir. Bütün bunlar heç bir fərq olmadan yardım istənilən şəxsin haqqında eynidir. Həmin şəxs istər diri, istərsə də, ölü olsun. Lakin bir şeyi də qeyd etmək lazımdır ki, əgər ölü insan yardım etmək qüdrətinə qadir deyilsə onda ondan yardım tələb olunması puç və əbəsdir. Yox, əgər yardım etməyə qadir olarsa onda ondan yardımın diləməsi insan əqli ilə heç bir ziddiyət təşkil etmir.

Peyğəmbərə təvəssül etmək mütəvatirdir[35]

Tarix, təfsir və sirə kitablarında bir sıra yayılmış təvəssül formaları mövcuddur ki, bütün bunlar hamılıqla təvəssülün müsəlmanlar arasında yayılmış bir fenomen olduğuna işarədir. Bundan əlavə, bu fenomenin varlığı təvəssülün dügün və qanuni, həmçinin peyğəmbərə istər dünya həyatında, istərsə də Bərzəx həyatında olursa olsun təvəssül etməyin mümkünlüyünə açıq aşkar dəlildir. Lakin son zamanlar bu fenomenin inkar olunması ortaya çıxmışdır.

Bəli, bir qrup insan təvəssülü inkar edir, lakin təvəssülün düzgün və qanuni olmasına dəlalət edən bu qədər rəvayətlə üzləşəndə onların sənədlərinə irad tutmağa başlayırlar. Lakin təvəssülün qanuni olmasına dəlalət edən rəvayətlər demək olar ki, təxminən mütəvatir hesab olunur. Əlbətdə, bu mətləbə dəlalət edən rəvayətlərin hamısını xatırlamaq iqtidarında olmasaq da, bəzi nümunələri qeyd etmək istərdik. Lakin bu barədə yazılmış kitablara müraciət etməklə həmin rəvayətlərin mövcudluğunu yəqin etmək olar.

1. Kar Hatəmin rəvayəti:

Əl Qəstəlani "Əl məvahib əl lədunniyyə bilminəh əl muhəmmədiyyə" kitabında Əl Həsən əl Bəsridən nəql edir ki, o, belə deyib: "Kar Hatəm peyğəmbərin qəbrinə gəlib dedi: "Ey rəbbim, biz Sənin peyğəmbərinin qəbrini ziyarət etdik, bizi məyus qaytarma." Bu vaxt nida eşidildi: "Ey kişi, biz səni yalnız qəbul etdiyimiz üçün ziyarət etməyə icazə verdik. Sən və sənin lə olan zəvvarlar qayıtsınlar. Biz sizləri əfv etdik."

Sonra müəllif həmin kitabda peyğəmbərə təvəssül etdiyi üçün Hatəmə üz verən bir çox bərəkətləri qeyd etmişdir.

2. Ey Muhəmməd, İsrafil, Mikayıl və Cərayılın rəbbi...

Əhli sünnət alimi Əl Nəvəvi yazır ki, Peyğəmbər sübh namazından sonra belə dua etməyi əmr etmişdir: "Ey mənim Allahım, ey Muhəmməd, İsrafil, Mikayıl və Cərayılın rəbbi məni oddan xilas et! (və ya (Cəhənnəm) odundan Sənə pənah aparıram)

[35] Yalan ehtimal olmayan çoxluq təşkil edən bir qrup insanın hər hansı bir hədisi nəql etməsidir

Peyğəmbər duanın qəbulu üçün bu adlara təvəssül etməni qeyd etmişdir. Baxmayaraq ki, Allah təala bütün məxluqatın rəbbidir.

Bu hədisi Əl Hakim səhih hesab etmişdir, İbn Həcər isə həsən hədis olduğunu söyləmişdir.

3. Peyğəmbərlərə and verib xahiş etmək:

Əbdülmalik ibn Harun ibn Əntərədən, o isə atasından və o isə babasından belə rəvayət olunur ki, Əbu Bəkr peyğəmbərin yanına gəlib deyir: "Mən Quranı öyrənirəm, lakin yadımda qalmır." Peyğəmbər buyurdu: "Belə de: "Ey mənim Allahım, Səni, peyğəmbərin Məhəmməd, dostun İbrahim, sirrin Musa və ruhun və kəlamın İsa, Musanın Tövratı, İsanın İncili və Məhəmmədin Furqanı, nazil etdiyin hər bir vəhy və hökm etdiyin hər bir hökmə and verib xahiş edirəm..."

İbn Teymiyyə demişdir: "Bu hədisi Zərrin ibn Müaviyə əl Əbdəri öz "Came"sində qeyd və İbn Əl Əsir "Cami əl üsul"da nəql etmişdir. Lakin bunlardan heç biri bu hədisi müsəlmanların kitablarına nisbət verərək gücləndirməmişdir. Bununla belə bu hədisi İbn Sünni və Əbu Nueym rəvayət edmişdir. Bu hədisi həmçinin Əbu əl Şeyx əl İsbəhani "Fadail əl amal"da rəvayət etmişdir.

4. Quranı əzbər öyrənmək hədisi

Təfsir sahibi Musa ibn Əbdürrəhman əl Sənani İbn Abbasdan nəql etdiyi rəvayətdə deyir ki, peyğəmbər buyurmuşdur: "Hər kim istəsə ki, Allah təala Quranı ona əzbərlətsin onda bu duanı yazsın: "Ey Allahım, Səni məsul olub Sənin kimilərdən sual soruşulmamasına və peyğəmbərin Məhəmməd, dostun İbrahim, sirdaşın Musa və ruhun, kəlamın və məqam sahibin İsaya and verib xahiş edirəm..."

5. İmam Şafeinin Əhli beytə təvəssülü

İbn Həcər əl Məkki "Əl səvaiq əl muhriqə" adlı kitabında Əhli sünnət məzhəblərindən birinin banisi olan Şafeinin şerlərindən iki beyti xatırlayaraq belə deyir:

Peyğəmbər ailəsi mənim bəhanəm Onlar Allaha mənim vəsiləm

Ümid edirəm onlara xatir, sabah Verilə sağıma mənim kitabım[36]

[36] آل الذبي ذر يعتي و هم اليه و سيا تي
أرخهم أعطى غد ا بيد ي اليمين صحيفتي

Təvəssül barəsində İslam alimlərinin qələmə aldıqları kitablar

Burada isə böyük Əhli sünnət alimlərinin bu mövzuda yazdığı kitabların adını qeyd edirik. Hər kim təvəssül barəsində geniş məlumat almaq istəsə bu kitablara müraciət edə bilər:

1. "Kitab əl vəfa fi fadail əl Mustafa"; İbn əl Covziy (hicrətin 597-ci ilində vəfat etmişdir). Çox maraqlıdır ki, müəllif bu kitabda peyğəmbərə təvəssül və həmçinin onun qəbrindən şəfa almaq barəsində ayrıca söhbət etmişdir.

2. "Misbah əl Zalam fi əl müstəğisin bi xayr əl ənəm"; Məhəmməd ibn Nüman əl Maliki (hicrətin 673-cü ilində vəfat etmişdir).

3. "Əl bəyan və əl ixtisar"; İbn Davud əl Maliki əl Şazili. Bu kitabda alim və saleh insanların müsibətlərlə üzləşən zaman peyğəmbərə təvəssül etmə faktlarını qeyd etmşdir.

4. "Şifa əl siqam"; Təqiddin əl Subki (hicrətin 756-cı ilində vəfat etmişdir). Müəllif bu kitabda peyğəmbərə təvəssül etmə barəsində çox gözəl bəhs etmişdir.

5. "Vəfa əl vəfa li əxbar dar əl Mustafa"; Nuruddin əl Səmhudi (hicrətin 911-ci ilində vəfat etmişdir).

6. "Əl məvahib əl ləduniyyə"; Əbul Abbas əl Qəstəlani (hicrətin 932-ci ilində vəfat etmişdir).

7. "Şərh əl məvahib əl ləduniyyə" ; Zərqani əl Maliki əl Misri (hicrətin1122-ci ilində vəfat etmişdir)

8. "Sülh əl ixvan"; Əl Xalidi əl Bağdadi (hicrətin 1299-cu ildə vəfat etmişdir). Müəllif həmçinin, peyğəmbərə təvəssül etmə mövzusunda Alusiyə rədd də yazmışdır. Həmin rədd hicrətin 1306-cı ilində işıq üzü görmüşdür.

9. "Kənz əl mətalib"; Əl Ədvi əl Həmzavi (hicrətin 1303-cü ilində vəfat etmişdir).

10. "Furqan əl Quran"; Əl Əzami əl Şafei əl Qadai. Bu kitab Beyhəqinin "Əl əsma və əl sifat" kitabı ilə birlikdə 140 səhifədə çap olunmuşdur.

Əziz oxucu, bu kitablara müraciət etməklə yəqin etmək olar ki, təvəssül məfhumu İslamda yeni bir məfhum olmayıb, əksinə İslamın ilk günlərindən bütün müsəlmanlar arasında yayılmış və öz qanuni əsasını tapmış bir mətləbdir.

Əhli sünnət alimi İbn Həcərin təvəssül barəsində dediyi sözlər

İbn Həcər belə demişdir: "Ziyarət edən üçün dua, yalvarış, yardım istəmə və peyğəmbərə təvəssül etməni artırmaq daha yaxşıdır. Peyğəmbərdən şəfaət diləyənə onun Allah tərəfindən həmin şəxs barəsində iltimasçı qərar verilməsi gözəldir.

Bil ki, "istiğasə" yardım diləməkdir. Yardım diləyənin hədəfi dilədiyi şəxsdən onun üçün yardımın hasil olması mühümdür. Buna görə də aşağıdakı ifadələrlə yardım diləməsində heç bir fərq yoxdur. İstər "istiğasə", istər "təvəssül", istərsə də "şəfaət" və yaxud da başqa sözlər olsun.

Bəzən də məqam sahibini ondan da uca olana vasitəçi salmaq mümkündür. Peyğəmbərdən yardım dilənməsi, onun vasitəçi və yaxud da iltimasçı və şəfaətçi qərar verilməsi "Təhqiq əl nüsrət" və "Misbah əl zalam" kitablarının qeyd etdikləri kimi istər peyğəmbərin yaradılışından əvvəl, istərsə də sonra, istər dünya həyatında, istərsə də Bərzəx həyatında olduğu zaman, hətta Qiyamət günündə belə olsun, baş verən həqiqətdir.

Peyğəmbərin yaradılışından əvvələ gəlincə isə Adəm peyğəmbərin cənnətdən çıxarıldığı zaman onu iltimasçı və şəfaətçi qərar verməsi faktı kifayətdir. Bu hadisəni rəvayətdə gələn sözlər də sübut edir. Belə ki, Allah təala Adəmə buyurur ki, ey Adəm, əgər göylər və yer əhli içində Muhəmmədi bizim dərgahımızda iltimasçı və şəfaətçi qərar versəydin biz sənə şəfaət edərdik. Abdullah ibn Cabir bu zəmində belə demişdir:

Onunla Allah cavab verdi, Adəm dua etdiyi an

Və nicat tapdı Nuh gəminin içində olduğu an

Və od vurmadı Xəlilə zərər onun nuruna xatir

Və nail oldu fidaya onun xatirinə Zəbih[37]*

---

[37] به قدأجاب الله آدم اذ د عا

ونجا في بطن ا لسفينٮ نو ح

و من أ جله نا ل الفداءذبيح

Peyğəmbər buyurmuşdur: “Adəm peyğəmbər xəta etdikdən sonra belə dua etmişdir: “Mənim rəbbim, Səni Muhəmmədin haqqına and verib xahiş edirəm ki, məni bağışlayasan. Allah təala ona belə cavab verdi: “Ey Adəm, Muhəmmədi necə tanıdın halbuki Mən onu hələ yaratmamışam? Adəm belə dedi: “Ey mənim rəbbim, Sən məni öz əlinlə xəlq edib mənə öz ruhundan üfürdükdən sonra başımı qaldırıb ərşin sütunlarında bu yazını gördüm: “Allahdan başqa bir məbud yoxdur və Muhəmməd də Onun rəsuludur.” Bildim ki, Sən yaratdıqlarının içində ən sevimli şəxsi öz adınla birgə çəkmisən. Allah təala belə buyurdu: “Düz dedin, ey Adəm. O, yaratdıqlarımın içində mənim ən sevdiyimdir. Və əgər Məni onun haqqına and veib xahiş etsən səni əfv edərəm. Əgər Muhəmməd olmasaydı səni yaratmazdım!”

Yaradıldıqdan sonra onun vasitə qərar verilməsinə gəlincə isə qəhət ilində, yağışsz günlərdə, həmçinin aclıqdan qurtarmaq üçün ondan yardım diləməsi buna misal ola bilər...

Bərzəx aləminə köçəndən sonra vasitə qərar verilməsinə gəlincə isə bu kimi hadisələrin sayı hesabı yoxdur.

Əziz oxucu, təvəssül məfhumunu Quran və sünnət baxımından təhqiq etdim. Bacardığım qədər bu iki mənbədən kənara çıxmadım. Əgər hər hansı bir şeyi əlavə etmişəmsə bunu yalnız izah üçün etmişəm. Hadisələri öz əsas mənbəlrində axtarıb təhqiq edəndən sonra qeyd etmiş və başqalarının nəqlinə (bəzi yerlərdən başqa) etimad etməmişəm. Qələmimi İslam ədəbinə uyğun gəlməyən məfhumlardan qorumuşam. Əgər bu kitabın hər hansı bir yerində sərtlik varsa bu yalnız təqdim edilən dəlillərin qüvvəsi və aşkarlığından irəli gəlir.

Tərcümə etdi: Hacı Heydər Məmmədov

Hazırladı: Vüsal Əli

و ما ضر ت النا رالخليل لنوره

- Bu şerdə qeyd olunan “Xəlil” İbrahim və “Zəbih” isə İsmayıl peyğəmbərə işarədir